# İNKLÜZİV TƏHSİLƏ DAİR ÜMUMİ ANLAYIŞ, PEDAQOJİ KADRLARIN PEŞƏKAR HAZIRLIĞI VƏ MÖVCUD RESURSLAR HAQQINDA SOSİAL TƏDQİQAT



## ANALİTİK HESABAT

Bu layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

"Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsi

RİİB Regional İnkişaf İctimai Birliyi

Bu layihə RİİB tərəfindən icra olunur

# İNKLÜZİV TƏHSİLƏ DAİR ÜMUMİ ANLAYIŞ, PEDAQOJİ KADRLARIN PEŞƏKAR HAZIRLIĞI VƏ MÖVCUD RESURSLAR HAQQINDA SOSİAL TƏDQİQAT

**ANALİTİK HESABAT**


**Hesabatın müəllifləri:**

**Tahir Fərədov,** fəlsəfə üzrə fəlsəfə doktoru
**Ayşəm Balayeva,** sosiologiya üzrə magistr, sosial problemlər üzrə doktorant



**Bakı - 2018**

*Bu hesabat Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi tərəfindən Avropa Birliyinin maliyyə dəstəyi ilə icra olunan "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsi çərçivəsində Beynəlxalq Sosial və Marketinq Tədqiqatlar Mərkəzi (BSMTM) tərəfindən hazırlanmışdır.*

*Hesabatın məzmununa görə "Regional İnkişaf" İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul edilə bilməz*

## Mündəricat

Giriş........................................................................................................................................1

I. Sosioloji tədqiqatın məqsəd və vəzifələri ........................................................................ 5

II. Sosioloji tədqiqatın metodologiyası ............................................................................ 5

III. Tapıntılar ........................................................................................................................ 7

IV. Sorğunun nəticələri ........................................................................................................ 9

V. Valideynlərlə keçirilmiş sorğunun nəticələri ................................................................ 20

VI. Fokus qrup müzakirələrinin nəticələri ........................................................................ .31

VII. Ekspert müsahibəsinin nəticələr..................................................................................46

VIII.Təkliflər...........................................................................................................................50

# GİRİŞ

Son illərdə Azərbaycanda inklüziv təhsilin tətbiqi məsələlərinə dövlət orqanları və qeyri-hökumət təşkilatları tərəfindən xüsusi diqqət yetirilmişdir.

Bu problemin hədsiz əhəmiyyəti və vacibliyi tədris prosesi ilə əhatə olunmayan və sosial həyatda iştirak etməyən çox sayda uşağın mövcudluğu ilə bağlıdır. Statistik məlumatlara görə hazırda Azərbaycanda 65482 əlilliyi olan uşaq var. Əlilliyi olan uşaqlar əsasən xüsusi məktəblərdə, xüsusi internat məktəblərində və ya evdə təhsilə cəlb olunmuşdurlar. Digər tərəfdən, əlilliyi olan uşaqlar üçün nəzərdə tutulan mövcud təhsil təminatından istifadə imkanları bütün ölkəni əhatə etmir.

Buna görə əlilliyi olan uşaqların, onların fiziki, psixi, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq, onların öz həmyaşıdları ilə məktəbdə eyni sinifdə təhsilə cəlb olunmasının təmin edilməsi çox vacibdir.

Əlilliyi olan uşaqların digər hüquqları ilə yanaşı, təhsil hüququnun qorunması və dəstəklənməsi bir sıra beynəlxalq sənədlərdə də öz əksini tapmışdır. Məsələn, 2006-cı il dekabrın 13-də Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən qəbul edilmiş “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiya əlilliyi olan şəxslərin təhsil hüquqlarının bir çox tərəflərini əhatə edir və inklüziv təhsilin hər kəs üçün ən yaxşı təhsil mühiti olduğunu təşviq edir.

Vətəndaşların Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş təhsil hüquqlarını təmin etmək məqsədi ilə “Təhsil haqqında” və “Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında” Azərbaycan Respublikasının qanunları qəbul edilmişdir. Eyni zamanda, “Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda sağlamlıq imkanları məhdud şəxslərin təhsili və peşə hazırlığı ilə bağlı məsələlər öz əksini tapmışdır.

Ölkəmizdə inklüziv təhsilin tətbiqi ilə bağlı 2004-cü ildən başlayaraq təşəbbüslər olmuşdur. Əlilliyi olan uşaqların təhsilinin təşkili ilə əlaqədar 2005-2009-cu illər üçün inkişaf proqramı çərçivəsində inklüziv təhsilin təşkili ilə bağlı 3 pilot layihənin icrasına başlanılmışdır.

“İbtidai təhsil səviyyəsi üzrə inklüziv təhsilin tətbiqi” layihəsi üzrə pilot məktəblərin müəyyən edilməsi barədə Azərbaycan Respublikası Təhsil Nazirinin əmri əsasında 4 pilot ümumi orta təhsil müəssisəsində İT tətbiq edilir.

Sağlamlıq imkanları məhdud uşaqların digər uşaqlarla birgə təhsilə (inklüziv təhsilə) cəlb olunması üçün “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”nın həyata keçirilməsi zəruridir. Dövlət Proqramının məqsədi sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməkdən və onların təhsili üçün maneəsiz mühit yaratmaqdan ibarətdir.

Eyni zamanda vurğulamaq lazımdır ki, inklüziv təhsil sahəsində layihələrin, fəalliyətlərin səmərəli, effektiv idarə edilməsi və optimal şəkildə həyata keçirilməsi üçün faktiki vəziyyətin, müxtəlif peşəkar kateqoriyalarının, sosial qrupların nümayəndələrinin fikirlərini və qiymətləndirmələrini aydın şəkildə bilmək və başa düşmək lazımdır.

Bunları nəzərə alaraq, bu məqsədə çatmaq üçün ölkədə əlilliyi olan uşaqların təhsilə cəlb edilməsini, həmçinin keyfiyyətli təhsillə əhatə olunmasını təmin etmək, mövcud maneələri və çətinlikəri, həmçinin mövcud resursların müəyyən edilməsi məqsədilə “Regional İnkişaf” İctimai Birliyi tərəfindən “Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması” layihəsi çərçivəsində Bakı şəhərində, Şamaxı, Quba, Ağcabədi, Şəki və Cəlilabad rayonlarında ehtiyacların qiymətləndirilməsi məqsədilə hərtərəfli sosioloji tədqiqat aparılmışdır.

## I. SOSİOLOJİ TƏDQİQATIN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

Keçirilən sosioloji tədqiqatın **əsas məqsədi** seçilmiş 6 regionda (Bakı, Şəki, Ağcabədi, Quba, Şamaxı, Cəlilabad) müxtəlif hədəf qruplarının, maraqlı tərəflərin və peşə kateqoriyalarının nümayəndələrinin inklüziv təhsilin (İT) tətbiqi ilə bağlı fikirlərini, bəzi vacib mövzular və məsələlər haqqında rəyini, qiymətləndirmələri və münasibətlərini öyrənmək və təhlil aparmaqdır.

Keçirilən sosioloji tədqiqatın **xüsusi vəzifələri** aşağıdakılardır:

1. Hədəf qruplarının nümayəndələrinin İT haqqında **məlumatlılıq** səviyyəsinin, İT sisteminin mahiyyətinin və konsepsiyasının nə şəkildə **anlaşılmasının** və bu sahədə **biliklərin** mövcud dərəcəsinin öyrənilməsi.

2. Hədəf qrupların nümayəndələrinin yaşadığı ərazidə (rayon, şəhər/kənd) İT tətbiqinə müvafiq **peşəkar hazırlıq** (nəzəri, texnoloji, metodik, psixoloji) səviyyəsinin qiymətləndirilməsi.

3. Keçirilən layihə çərçivəsində İT sahəsində optimal fəaliyyətlər və tədbirlərin həyata keçirilməsi **planlaşdırma** üçün hədəf qrupların nümayəndələrinin müxtəlif tələbatları, maraqları və gözləntilərinin, eləcə də təklif və tövsiyələrinin müəyyənləşdirilməsi və nəzərə alınması.

4. Hədəf qruplarının nümayəndələri tərəfindən İT sahəsində yerli mövcud **resursların** qiymətləndirilməsi və fikirlərinin müəyyənləşdirilməsi.

5. Müzakirələr zamanı iştirakçılar tərəfindən səslənən İT-in tətbiqinə dair innovativ, maraqlı və perspektivli fikirlər əsasında **"İdeyalar bankı/portfeli"nin** yaradılması.

## II. SOSİOLOJİ TƏDQİQATIN METODOLOGİYASI

Lazımlı məlumatların toplanması və qiymətləndirilməsində **kəmiyyət** və **keyfiyyət** tədqiqat metodlarından istifadə edilmişdir:

### 1. İctimai rəy sorğusu

- Respondentlərin sayı - 224 nəfər
- Respondentlərin sayı - 134 valideyn
- Sorğunun aparılması üsulu: "üz-üzə" müsahibələr və və ya sorğu anketinin respondent tərəfindən doldurulması.

### 2. Fokus qrup müzakirələri

- Fokus qrup №1 (Hədəf qrupu №1 - Azərbaycan Dövlət Pedaqoji Universitetinin "İbtidai sinif müəllimliyi" ixtisasının tələbə və məzunları).
- Fokus qrup №2 (Hədəf qrupu №2 - ADPU-nun Korreksiyaedici təlim və İbtidai təhsilin pedaqogikası və metodikası kafedrasının müəllim-professor heyəti, həmçinin, ADPU-nun Şəki, Quba, Şamaxı, Cəlilabad, Ağcabədi filiallarının müəllim-professor heyəti).
- Fokus qrup №3 (Hədəf qrupu №3 - orta/ibtidai məktəblərin müəllimləri, psixoloqları və administrasiyası (direktor, direktor müavini).

### 3. Ekspert müsahibəsi

- Təhsil Nazirliyi və onun müvafiq struktur bölmələri, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi, ADPU, BDU, ADA Universiteti, Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu, yerli ictimai təşkilatlar, eləcə də əlil təşkilatlarının nümayəndələri və İT sahəsində mütəxəssislər olmaqla ümumilikdə 20 nəfər arasında **ekspert sorğusu** keçirilmişdir.
- Bu sorğunun **məqsədi** ekspertlərin və mütəxəssislərin inklüziv təhsilə dair müxtəlif məsələlər üzrə fikirlərini və qiymətləndirmələrini öyrənməyə yönəldilmişdir.

**Coğrafi əhatə**

- ✓ Bakı
- ✓ Şəki
- ✓ Şamaxı
- ✓ Quba
- ✓ Ağcabədi
- ✓ Cəlilabad




**Sahə işi**

Sahə işi Beynəlxalq Sosial və Marketinq Tədqiqatlar Mərkəzi (BSMTM) tərəfindən 2018-ci ilin avqust-sentyabr ayı ərzində keçirilib.

Bütün müsahibələrdə anonimlik və konfidensiallıq ciddi şəkildə təmin edilib.

Respondentlər tam əmin ediliblər ki, onların cavabları yalnız ümumiləşdirilmiş şəkildə istifadə olunacaq. Bu amil sorğu nəticəsində toplanılan məlumatların yüksək etibarlılığına səbəb olub.

**Məlumatların işlənməsi və təhlili**

Sorğu bitdikdən sonra hər bir anket üzrə toplanılan məlumatlar bazaya daxil edilərək xüsusi proqram SPSS - Statistical Package for the Social Sciences (Sosial Elmlər üzrə Statistik Proqram Paketi) vasitəsilə təhlil edilib.

## III. KEÇİRİLMİŞ SOSİOLOJİ TƏDQİQATIN ƏSAS TAPINTILARI

1. Ölkəmizdə əlilliyi olan uşaqların indiki ümumi vəziyyəti qənaətbəxş deyildir.

2. Bakıda və xüsusilə ölkənin regionlarında **müvafiq infrastrukturun** (rampalar, panduslar, xüsusi eşitmə aparatlar, yeraltı keçidlərdən, xüsusi işıqlandırma, tualetlər, nəqliyyat problemlər, səsli işıqforlar) olmaması bu uşaqları **məktəbdə oxumağına** mane olan əsas amillərdəndir.

3. Əlilliyi olan uşaqların **sosial müdafiəsi və onlar üçün sosial xidmətlər** mövcud və adekvat deyil. Əlilliyi olan uşaqlar üçün **psixo-sosial** və **tibbi reabilitasiya** xidmətləri kifayət qədər qənaətbəxş səviyyədə deyil və xüsusilə regionlarda reabilitasiya mərkəzlərinə çox ehtiyac var. Belə müəssisələr əlilliyi olan uşaqların **məktəbə** hazırlığında çox müsbət təsir edə biləcək vacib amildir.

4. Əlilliyi olan uşaqların təhsili ilə bağlı qanuvericilikdə bəzi məhdudiyyətlər mövcuddur. Həmçinin, bu uşaqların statistikası düzgün aparılmır.

5. Cəmiyyətin sağlamlıq imkanları məhdud uşaqlara qarşı qeyri-adekvatlığı. əlilliyi olan uşaqlara insanlar tərəfindən mənfi **ictimai münasibət** mövcuddur.

6. Əlilliyi olan uşaqların valideynləri ilə əlaqəli bir sıra problemlər mövcuddur. Bu uşaqların valideynləri daha çox psixoloji gərginlik keçirirlər, hələ də çox valideyn əlilliyi olan uşaqlarını **evdən çıxarmağa qorxur**, bəzi valideynlər üçün isə bir növ **utanc** hesab olunur, valideynlər məlumatsızdırlar, əlilliyi olan uşaqlarla məşğul ola bilmək üçün **lazımi bilik və bacarıqlara** sahib deyil; valideynlərin uşaqları ilə bağlı məsləhət ala biləcəyi hər hansı **müvafiq müəssisə** yoxdur.

7. Cəmiyyətdə inklüziv təhsil ilə bağlı **məlumatlılıq** aşağı səviyyədədir.

8. Orta/ibtidai məktəblərin işçilərinin **(müəllimlər, psixoloqlar, administrasiyası)** İT tətbiqinə indiki **ümumi məlumatlılıq hazırlığı, xüsusi professional hazırlıq, psixoloji hazırlıq** səviyyəsi çox zəif və aşağıdır. Müəllimlər tədris prosesində ənənəvi metodologiyadan istifadə edirlər, yeni yanaşmalardan xəbərsizdirlər. ADPU-nun müəllimlərinin də İT ilə bağlı bilik və hazırlıq səviyyəsi aşağıdır.

9. Hal-hazırda mütəxəssis çatışmazlığı mövcuddur. Xüsusən də regionlarda mütəxəssislər başqa sahənin insanlarıdır, bu sahə mütəxəssisləri çox azdır. Ölkədə xüsusi təhsil sahəsində nəzəri biliyi, praktik bacarığı və bu kateqoriyalı uşaqlarla işləmək üçün psixoloji bacarığı olan az sayda kadrlar var; uşaq inkişaf mərhələlərini bilən, İT sahəsində

metodikanı, tədris materialları və dərsliklər hazırlamağa qadir olan mütəxəssislər demək olar sıfır dərəcəsindədir.

10. Müəllimlər və tələbələr arasında İT böyük maraq var. Orta/ibtidai məktəblərin müəllimləri İT sisteminin tətbiq olunmasında, əlilliyi olan uşaqlarla işləməkdə maraqlıdırlar və özlərində bu potensialı görürlər. ADPU-nun Bakı və digər filiallarındakı müəllimləri və tələbələri də İT ilə bağlı fənnin keçirilməsini istəyirlər. Ümumilikdə həm orta/ibtidai məktəblərin müəllimləri, həm də potensial müəllim olan tələbələr onlara müvafiq kurs, təlim, treninq keçiriləcəyi halda İT sahəsində işləməyi arzulayırlar.

11. İT sahəsində mövcud **tədris resursları** (dərsliklər, didaktik materiallar, xüsusi təlim proqramlar, kurikulum, müasir tədris üsulları, innovativ texnologiyalar, xüsusi qiymətləndirmə metodları) çox aşağı səviyyədədir. Azərbaycan dilində isə yox dərəcəsindədir. Nə dərsliklər, nə proqramlar, nə dərs vəsaitləri, nə tədris proqramı heç biri xüsusi təhsil üçün yenilənməyib. Beynəlxalq təcrübəyə əsaslanan resurslara ehtiyac var. Xarici təcrübəni də olduğu kimi gətirmək olmaz, o bizim qanunlarımıza, şəraitimizə, mühitimizə uyğunlaşdırılmalıdır.

12. İT sahəsində maarifləndirmə aşağı səviyyədədir. Mövcud **maarifləndirmə çap materiallarının** vəziyyəti qənaətbəxş deyil. Bakıda müəyyən qədər maarifləndirmə materialları olsa da, regionlarda bunlara ümumiyyətlə rast gəlinmir.

13. İT ideyasının gerçəkləşdirilməsi dağınıq və lazımi peşəkarlıq olmadan həyata keçirilsə, bu, həm əlilliyi olan uşaqlar, həm də digər uşaqlar üçün təhsilin keyfiyyətini azaldacaq və gözlənilən təsiri olmayacaqdır. İnklüziv təhsilin sistemli və ardıcıl şəkildə həyata keçirilməsi vacibdir.

14. İT sisteminin tətbiqi çox böyük **müsbət** dəyişikliklərə və nəticələrə gətirib çıxarar. Belə ki, əlilliyi olan uşaqların tədricən sosiallaşmasına, onların hərtərəfli fiziki və intellektual inkişafına, cəmiyyətə adaptasiya olunmasına əhəmiyyətli dərəcədə kömək olacaq təhsilin humanistləşməsinə səbəb olacaqdır; bu uşaqların özünə inam hissinin artmasına, gələcəkdə onların ali məktəbə qəbul olunmasında yarana biləcək problemlərin əhəmiyyətli dərəcədə azalması və nəticədə onların məşğulluq problemlərinin aradan qaldırılması kimi müsbət dəyişikliklərə səbəb olacaq.

15. İT sahəsində kadr hazırlığına, orta/ibtidai məktəb müəllimlərinin ixtisaslaşmasına, azərbaycan dilində müvafiq resursların və vəsaitlərin hazırlanmasına, ixtisaslı mütəxəssis hazırlığına, cəmiyyətin maarifləndirilməsinə, xüsusilə əlilliyi olan uşaqların valideynlərinin məlumatlandırılmasına, onlar üçün xüsusi metodik vəsaitlərin hazırlanmasına, infrastrukturun müəssərliyinin təmin edilməsinə, beynəlxalq təcrübənin öyrənilməsinə, İT sistemi haqqında düzgün **ictimai rəy** və **fikrin** formalaşması üçün müxtəlif səviyyələrdə maarifləndirmə kampaniyalarınnın keçirilməsinə böyük ehtiyac var.

## IV. MÜXTƏLİF PEŞƏ KATEQORİYALARINDAN OLAN ŞƏXSLƏRLƏ APARILMIŞ SORĞUNUN NƏTİCƏLƏRİ

Sorğu Bakı və 5 regionda (Şamaxı, Quba, Şəki, Ağcabədi, Cəlilabad) keçirilmişdir. Respondentlərin region üzrə bölgüsünə əsasən sorğuda 58 nəfər Bakı, 30 nəfər Şəki, 31 nəfər Ağcabədi, 37 nəfər Quba, 33 nəfər Şamaxı və 35 nəfər Cəlilabaddan olmaqla ümumilikdə 224 nəfər iştirak etmişdir.




Sorğu müxtəlif peşə kateroqiyasına daxil olan şəxslər arasında keçirilmişdir. Bura ADPU-nun Bakıda və digər regionlarda olan filiallarının tələbələri (87 nəfər) və professor-müəllim heyəti (46 nəfər), orta/ibtidai məktəbin müəllimləri və administrasiyası (52 nəfər), mərkəzi və yerli təhsil qurumlarının işçiləri (21 nəfər), sağlamlıq imkanları məhdud uşaqlarla işləyən mütəxəssislər (15 nəfər) daxildir.



## İnklüziv təhsil haqqında nə dərəcədə məlumatlısınız?

İnklüziv təhsil haqqında məlumatlılıq dərəcəsini öyrənərkən bəlli oldu ki, respondentlərin 17%-nin bu barədə heç bir məlumatı yoxdur. Respondentlərin 58,5%-nin müəyyən dərəcədə, 20%-nin kifayət qədər, 4%-nin tam, peşəkar səviyyədə məlumatı var. İnklüziv təhsil barəsində tam məlumata sahib olan respondentlər Bakı şəhərindən olanlardır, İT haqqında heç bir məlumatı olmayanlar Ağcabədi və Qubada üstünlük təşkil edir. Şəki, Quba, Cəlilabadda İT ilə bağlı məlumatlılıq üstünlük təşkil edir.




## Siz inklüziv təhsil haqqında məlumatı əsasən hansı mənbələrdən alırsınız?




Respondentlərin 41%-i İT ilə bağlı məlumatları müəllimlərdən, 23%-i kurs və təlimlərdən, 23%-i xüsusi elmi ədəbiyyatlardan, kitablardan və s., 21%-i isə KİV-dən alır. Tədqiqatda iştirak edən tələbələrin əksəriyyəti müəllimlərdən İT ilə bağlı məlumat alır. Həmçinin, bu respondentlərin arasında müəllimlər də üstünlük təşkil edir. Bu müəllimlər arasında olan peşəkar qarşılıqlı informasiya mübadiləsinin göstəricisidir. İT ilə bağlı məlumatları kurs və təlimlərdən alan müəllimlərin 50%-i Bakıdan olan müəllimlər, yerdə qalan 50% isə digər regionların payına düşür. Bu rayonlarda Bakıya nisbətən kursların, təlim və treninqlərin daha az keçirilməsinin göstəricisidir. Lakin regionda olan müəllimlər İT ilə bağlı təlim və treninqlərdə iştiraka çox maraqlıdırlar və bunların tez-tez keçirilməsini istəyirlər. KİV-dən və xüsusilə internetdən əsasən tələbələr məlumat əldə edirlər. İT ilə bağlı azərbaycan dilində tədris vəsaitlərinin olmaması bu sahə ilə bağlı akademik və etibarlı məlumatların alınmasına mənfi təsir göstərir. Adətən elmi kitablardan müəllimlər və digər mütəxəssislər istifadə edirlər.

**Siz Azərbaycanda ümumtəhsil məktəblərində İT modelinin tətbiqini vacib və məqsədəuyğun hesab edirsiniz?**

Rəyi soruşulan respondentlərin 55.9%-i Azərbaycanda orta/ibtidai məktəblərdə İT modelinin/sisteminin tətbiqini çox vacib və məqsədəuyğun hesab edir. Qalan 30%-i müəyyən dərəcədə vacib hesab edir, 5%-i buna ehtiyac olmadığını bildirmiş, 9%-i isə cavab verməkdə çətinlik çəkmişdir. İT-in tətbiqinə ehtiyac duymayan 5% respondent İT ilə bağlı məlumatı olmayan respondentlərin içərisində yer alanlardır. Onlar İT-in mahiyyətini bilmədiyindən bunun ölkə məktələrində tətbiqinə də ehtiyac görmürlər. Faizlərdən də göründüyü kimi respondentlərin əksəriyyəti İT-in tətbiqinin vacib və zəruri olduğunu düşünür.




**İnklüziv təhsilin tətbiqi üçün aşağıdakı amillərin və şəraitlərin indiki vəziyyətini siz necə qiymətləndirərdiniz?**

Bildiyimiz kimi İT-in tətbiqi üçün bir çox zəruri amillər mövcuddur. Bura dərsliklər, müəllimlərin hazırlıq səviyyəsi, infrastruktur, məktəblərin şəraiti, cəmiyyətin münasibəti və s. daxildir. Respondentlərə müxtəlif bəndlərdə İT-in tətbiqində zəruri olan amillərin sadalandığı sual bloku təklif olunmuşdur və hər bəndi də “yaxşı”, “orta”, “pis” olmaqla 3 göstərici üzrə qiymətləndirmələri xahiş olunmuşdur. Respondentlərin 27%-i müasir dərsliklərin və tədris materiallarının mövcudluğunun yaxşı olduğunu, 49%-i orta, 20%-i pis olduğunu bildirmişdir. Əsasən də regionlarda müasir dərslik və tədris materiallarının əlçatanlığı aşağı səviyyədədir. Regionlarda olan respondentlər İT sahəsində azərbaycan dilində dərsliklərin və digər vəsaitlərin olmamasını bildirmişlər. Müəllimlər üçün hazırlıq, ixtisaslaşdırma və təkmilləşdirmə kurslarının keçirilməsinə gəldikdə respondentlərin cavablarından aydın olur ki, 30%-i yaxşı, 50%-i orta, 13%-i isə pis olduğunu düşünür. Respondentlərin 31%-i müəllimlərin və bu sahədə işləyən mütəxəssislərin peşəkarlığı, bilik və bacarıqlarının yaxşı olduğunu, 53%-i orta olduğunu, 11%-i pis olduğunu düşünür, 4%-i isə bu haqda cavab verməkdə çətinlik çəkir.

Cavablardan da görünür ki, müəllimlərin İT sahəsində bilik və bacarığı, səriştəsi kifayət qədər yüksək deyil. Adətən əlilliyi olan uşaqlarla işləyən müəllimlərin xüsusi yanaşması, metodu yoxdur. Fərdi yanaşmanın tətbiqində çətinliklər var.

Rəyi soruşulan respondentlərin cavablarından bəlli olmuşdur ki, müəllimlər və yardımçı heyət üçün müvafiq resursların təmin olunması və əlçatanlığı məsələsində problemlər kifayət qədərdir. Respondentlərin 13%-i bu təminatın və əlçatanlığın yaxşı olduğunu, 48%-i orta olduğunu, 33%-i pis olduğunu söyləmişdir. Xüsusilə regionlarda müəllimlər resursların əlçatanlığından narazıdırlar. Hətta bir çox hallarda müəllimlər öz vəsaitləri hesabına etməyə çalışırlar ki, bu da həmin resurslardan daimi istifadə etmək imkanını azaldır.




Respondentlərin fikrinə görə, İT sahəsində maarifləndirmə çap materiallarının (broşurlar, bukletlər, plakatlar və s.) mövcudluğu o qədər də yüksək səviyyədə deyil. Respondentlərin cəmi 15%-i bunun yaxşı olduğunu, 48%-i orta, 34%-i pis olduğunu bildirmişdir. Bu göstərici maarifləndirmə sahəsində problemlərin daha çox olduğunu bir daha göstərir. Hətta regionlarda olan respondentlər belə maarifləndirmə materialları ilə ümumiyyətlə qarşılaşmadıqlarını bildirmişlər. Bu rəqəmlər ölkənin regionlarında İT ilə bağlı maarifləndirməni inkişaf etdirməyi və ölkə üzrə regionlarda yaymaq zərurətini təsdiqləyir.

Sorğu göstərdi ki, respondentlərin 25%-i bütün cəmiyyətdə əlverişli və xeyirxah sosial-psixoloji mühitin yaxşı olduğunu, 48%-i orta olduğunu, 23%-i pis olduğunu bildirmişdilər. Yerli icmalarin müsbət ve tolerant münasibətinin 17% respondent yaxşı olduğunu, 55% orta, 18% pis olduğunu düşünür.

Son iki suala diqqət yetirsək aydın olur ki, əslində Azərbaycanda insanlarda humanizm, tolerantlıq kimi xüsusiyyətlərin yüksək olduğunu nəzərə alsaq 17%-in tolerant münasibətinin yaxşı olduğunu düşünməsi bu məsələnin cəmiyyətdə hələ də düzgün qəbul

edilməməsinin, anlaşılmamasının göstəricisidir. Bu, həmçinin, İT məsələləri ətrafında yerli icmalarda müvafiq təhsil və maarifləndirmə kampaniyalarına böyük ehtiyacın olduğunu göstərir.

Respondentlərin cavablarından bəlli olmuşdur ki, 24%-i İT yönümlü təhsil siyasətinin yaxşı olduğunu, 48%-i orta olduğunu, 18%-i pis olduğunu düşünür. Bu bir növ həm İT təhsil sahəsinə daha az diqqət göstərilməsinin, həm də bu sahədə görülən işlərdən əhalinin xəbərdar olmamasının göstəricisidir.

Respondentlərin fikirlərindən, həm də Azərbaycanda olan əlilliyi olan uşaqların sayına nəzər saldıqda demək olar ki, İT sahəsi Azərbaycanın təhsil sisteminin xüsusi bir qolu olmalıdır.

Respondentlərin cavablarından bəlli olur ki, İT-in tətbiqi üçün zəruri olan amillər mövcudluğu o qədər də qənaətbəxş səviyyədə deyil. Bu göstərilən sahələrdə işlərin görülməsinə böyük ehtiyac var.

**Siz aşağıdakı sosial kateqoriyaların və qurumların inklüziv təhsilin tətbiqinə indiki hazırlıq səviyyəsini necə qiymətləndirərdiniz?**

İT-in tətbiqi prosesi müxtəlif komponentləri özündə birləşdirir. Belə ki, burada yalnız məktəb müəllimləri ilə iş bitmir. Müxtəlif qurumlar mövcuddur ki, bu prosesin həyata keşirilməsində birbaşa rolu var. Respondentlərə bir neçə qurum və sosial kateqoriya təqdim olunaraq onların İT sisteminin tətbiqinə indiki hazırlıq səviyyəsini qiymətləndirmələri xahiş olunmuşdur.

Sorğu əsasında aydın oldu ki, respondentlərin 21%-i İT-in tətbiqinə məktəb müəllimlərinin indiki hazırlıq səviyyəsinin yüksək, 51%-i orta, 25%-i aşağı olduğunu bildirmişdir. Nəticələrdən də aydın olur ki, məktəb adminstrasiyasının hazırlığının 12% yüksək olduğunu, 54% orta, 27% aşağı olduğunu düşünür.

Universitet müəllimlərinin hazırlığının 12% respondent yüksək olduğunu, 49% orta, 14% aşağı olduğunu düşünür. Burada respondentlər arasında universitet müəllimlərinin və tələbələrinin də olduğunu nəzərə alsaq bu göstəricədə birbaşa real qiymətləndirmənin əks olunduğunu görürük. Bu isə məktəb müəllimləri ilə, potensial müəllim hazırlığı həyata keçirən universitet müəllimlərinin də İT sisteminin hazırlanması və tətbiqi prosesinə cəlb olunmasını zəruri edir.

Müvafiq mərkəzi və yerli dövlət qurumlarının da İT-in tətbiqinə hazırlığı o qədər də yüksək səviyyədə deyil. Respondentlərin 23%-i mərkəzi dövlət qurumlarının hazırlığının yüksək, 19%-i isə müvafiq yerli qurumların hazırlığının yüksək olduğunu düşünür. Bu isə İT-in tətbiqində birbaşa rolu olan qurumların hələ bu prosesə hazır olmadığını, bu istiqamətdə intensiv və hərtərəfli işlərin görülməsini tələb edir.

Müsbət haldır ki, mütəxəssislərin (psixoloqlar, loqopedlər, sosial işçilər, defektoloqlar) hazırlığının qənaətbəxş olduğunu düşünən respondentlər üstünlük təşkil edir. Respondentlərin 42%-i mütəxəssislərin hazırlığının yüksək olduğunu, 41%-i orta olduğunu, 12%-i aşağı olduğunu düşünürlər. Mütəxəssislərin hazırlığının aşağı olduğunu düşünən respondentlər əsasən regionların payına düşür. Bu isə regionlarda özünü inkişaf üçün şəraitin müyəssər olmamasının göstəricisidir.




Bir çox sahələrdə olduğu kimi KİV-in bu sahədə də önəmli rolu var. Çünki insanların maarifləndirilməsi, məlumatlara çıxışı birbaşa KİV vasitəsilə mümkün olur. KİV-nin hazırlığının İT tətbiqinə 17% respondentin yüksək olduğunu, 41% orta, 32% aşağı olmasını bildirməsi bu sahədə mövcud olan problemlərə diqqət ayrılmasını zəruri edir.

Bu alınan faizlər bu sahədə kütləvi informasiya vasitələrinin fəaliyyətinin yaxşılaşdırılmasına diqqət artırmağın vacibliyini göstərir. Nüfuzsuz və etibarsız məlumatların yayılması, sosial yönümlü televiziya proqramlarının olmaması, sosial təbliğat videolarının və reklamın demək olar ki, tam olmaması İT-in tətbiqi prosesinin ciddi gecikməsinə səbəb olur.

Respondentlərin fikrinə görə, valideynlərin hazırlığı da o qədər də ürək açan vəziyyətdə deyil. 23% respondent bunun yüksək olduğunu, 41% orta, 32% aşağı olduğunu düşünür. Burada da birbaşa sağlamlıq imkanları məhdud uşaqlarla və valideynlərlə işləyən mütəxəssislərin olduğundan bu göstərici real şəraitin vəziyyətini əks etdirir. Xüsusilə regionlarda valideynlərin İT tətbiqinə hazırlığı aşağı səviyyədədir. Bir çox hallarda valideynlər ətrafdakıların münasibətindən çəkinərək sağlamlıq imkanları məhdud övladlarını gizlədir, cəmiyyətdən təcrid edir. Bu vəziyyətin ən əsas səbəblərindən biri, stiqma və stereotiplərin aradan qaldırılmasına yönəlik məlumatlandırma işinin az aparılmasıdır.

Nəticələrdən də aydın oldu ki, yuxarıda sadalanan sosial kateqoriyaların və qurumların İT tətbiqinə hazırlıq səviyyəsi o qədər də qənaətbəxş vəziyyətdə deyil. Ümumilikdə səviyyənin nə yaxşı, nə də pis olduğunu demək olmaz. Sadəcə ortaya yaxın bir vəziyyətdədir. Lakin bunların İT-in əsas elementləri olduğunu nəzərə alsaq bu sahənin inkişaf etdirilməsi labüddür.

**Siz müəllimlərin (indiki və gələcək) inklüziv təhsil sahəsində hazırlıq səviyyəsini necə qiymətləndirərdiniz?**

İT sisteminin əsas komponenti müəllimlərdir. Çünki əlilliyi olan uşaqlarla tədris prosesində birbaşa müəllimlər işləyir. Bu da həmin müəllimlərin və potensial müəllimlərin, yəni müəllimlik ixtisasında oxuyan tələbələrin bu sahədə peşəkarlığı məsələsini aktuallaşdırır. Respondentlərə təqdim olunan “müəllimlərin (indiki və gələcək) inklüziv təhsil sahəsində hazırlıq səviyyəsini necə qiymətləndirərdiniz?” sualında üç göstəriciyə (ümumi məlumatlılıq, peşəkar və psixoloji hazırlıq) əsasən müəllimlərin hazırlığı təhlil edilmişdir.




Sorğu göstərdi ki, müəllimlərin ümumi məlumatlılığı (müvafiq nəzəriyyələr, prinsiplər və texnoloji yanaşmalar sahəsində məlumatlılıq) respondentlərin 23%-i yüksək, 62%-i orta, 11%-i aşağı olduğunu düşünür. Respondentlərin 23%-i müəllimlərin peşəkar hazırlığının (didaktik biliklər, metodik bacarıqlar, “komanda” işi, ünsiyyət bacarıqları) yüksək, 55%-i orta, 18%-i aşağı olduğu qənaətindədir.

Respondentlərin 23%-nin fikrincə, müəllimlərin psixoloji hazırlığı (motivasiya, tolerantlıq, nikbinlik, şəxsi dəyərlər, pozitiv münasibət, səbr, məsuliyyət hissi) yüksək, 55%-nin fikrincə orta və 17%-nin fikrincə aşağıdır. Ümumilikdə götürsək respondentlərin fikrincə müəllimlərin bu sahədə hazırlığı orta vəziyyətdədir. Lakin yuxarı olduğunu düşünən respondentlərinin sayının az olması müəllimlərinin İT sahəsində peşəkarlığının qənaətbəxş olmadığını göstərir.

Xüsusilə regionlarda olan müəllimlərin özləri də etiraf edir ki, onların İT sahəsində istər ümumi məlumatlılıq, istər xüsusi professional hazırlığı aşağıdır. Yalnız psixoloji hazırlıqlarının nisbətən daha yaxşı olduğunu düşünürlər. Bu məsələyə də müəllimlər individual yanaşırlar. Yəni psixoloji hazırlıq fərddən fərdə dəyişən məsələdir. Hətta müəllimlərin təkliflərində belə bir məqam var ki, İT hər müəllim cəlb edilməsin. Müəllimlər

xüsusilə psixoloji statusu və hazırlıq səviyyəsi nəzərə alınaraq xüsusi seçmə prosesi əsasında bu sahədə fəaliyyətə cəlb olunsunlar.

**Fikrinizcə, İT modelinin tətbiqi prosesində hansı əsas problemlər, çətinliklər və maneələr mövcuddur?**

Hər hansı bir yeniliyi tətbiq edəndə müxtəlif çətinliklərlə qarşılaşmaq qaçılmazdır. Bunu İT tətbiqi ilə də bağlı söyləmək olar. Əhalinin İT modelinin/sisteminin tətbiqi prosesində hansı əsas problemlər, çətinliklər və maneələri gördüyünü təhlil etmək çox önəmlidir. Yuxarıda bir neçə dəfə əhalinin məlumatsızlığı, maarifləndirilməsi ilə bağlı məsələlər təkrarlanmışdır. Bu sualda da respondentlərin 59%-i İT sisteminin tətbiqində əsas problem kimi bu məsələlər üzrə ümumi əhali arasında çox aşağı məlumatlılıq səviyyəsini görür.




Əsas problem və çətinlik kimi respondentlərin 23%-i qeyri-kafi maliyyələşdirməni, 34%-i sağlam uşaqların valideynlərinin inklüziv təhsilə qarşı çıxmasını, etiraz etməsini, 57%-i təlim keçmiş, ixtisaslı mütəxəssislərin, kadrların çatışmazlığını, 42%-i İT təşkili üçün təhsil müəssisələrində müvafiq, xüsusi şəraitin olmamasını, 46%-i regionlarda əlilliyi olan uşaqların valideynlərinin övladlarına təhsil verəcək müəssisə tapa bilməməsini, 44%-i sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi proqram, dərslik və qiymətləndirmə metodlarının olmamasını görür. Burada ilk üçlükdə götürsək əsas problem və çətinliklər İT üzrə ümumi əhali arasında çox aşağı məlumatlılıq səviyyəsi, təlim keçmiş, ixtisaslı mütəxəssislərin, kadrların çatışmazlığı və regionlarda əlilliyi olan uşaqların valideynlərinin övladlarına təhsil verəcək müəssisə tapa bilməməsidir. Həmçinin bir neçə digər problemin olduğu da bildirilmişdir. Respondentlərdən bir neçəsi əlilliyi olan uşaqların fiziki və əqli vəziyyətinin tipik uşaqlara mənfi təsirini, İT-də dərs deyən müəllimlərin əmək haqqının digər

müəllimlərdən fərqlənməməsini, bu müəllimlərə stimullaşdırıcı ödənişin edilməməsini, valideynlərin laqeydliklərini əsas problem və çətinlik kimi görür.

**Fikrinizcə, İT modelinin tətbiqi hansı dəyişikliklərə və nəticələrə gətirib çıxara bilər?**

İT tətbiq olunduqda bu prosesin müxtəlif dəyişikliklərə və nəticələrə səbəb olması da gözləniləndir. Bununla bağlı respondentlərin fikirlərinin öyrənilməsi maraqlıdır. Respondentlərdən İT sisteminin tətbiqi hansı dəyişikliklərə və nəticələrə gətirib çıxara bilər? soruşduqda cavablar aşağıdakı diaqramdakı kimi oldu:




Əsas fikirləri önə çıxartsaq aydın olur ki, İT tətbiq olunduqda əlilliyi olan uşaqlar dərs prosesində digər həmyaşıdları ilə birgə iştirak edəcəklər, onların arasında bir-birinə qarşı anlaşma və hörmət hissi inkişaf edəcək, əlilliyi olan uşaqların inkişafına və sosiallaşmasına müsbət təsir göstərəcək, belə uşaqların təhsil ehtiyaclarını ödəyəcək, onların tam və bərabər hüquqlu şəxsiyyət kimi inkişaf etmələrinə kömək edəcəkdir. Yəni İT uşaqların hərtərəfli inkişafına, cəmiyyətin bərabərhüquqlu şəxsi kimi imkanlardan faydalanmağına şərait yaradacaq.

**İnklüziv təhsil modelinin/sisteminin tətbiqi üçün hansı tədbirləri və fəaliyyətləri siz zəruri hesab edirsiniz?**

İT tətbiqi üçün əhalinin hansı tədbirlərin keçirilməsini zəruri hesab etməsi işin səmərəli qurulması baxımından maraqlı və faydalıdır.

İlk altılığa əhalinin daha çox zəruri hesab etdiyi fəaliyyətlərə nəzər saldıqda İT təşkil edilməsi ilə bağlı pedaqoji və təlimatçı kadrların hazırlanması (defektoloq, nitq terapevti, tərbiyəçi və s.) ilk yerdə durur. Bu kadr hazırlığı məsələsinin vacibliyini bir daha təsdiqləyir.




Həmçinin, respondentlərin fikrinə görə, əlilliyi olan uşaqların ehtiyaclarına uyğunlaşdırılmış öyrədici materialların, tədris materiallarının və öyrədici proqramların hazırlanması çox vacib və əsas məsələdir. Belə ki, birbaşa sağlamlıq imkanları məhdud uşaqlarla işləyən müəllimlər də hazırki kurrikulumun və dərs vəsaitlərinin uşaqlar üçün çətin olduğunu, onların qavrama səviyyəsindən yüksək olduğunu bildirmişdir. Bu problemin həlli üçün müəllimlər sadələşdirilmiş, sağlamlıq imkanları məhdud uşaqlarla tipik uşaqların ortaq keçə biləcəyi dərsliklərin hazırlanması tərəfdarıdırlar. Maraqlı və nəzərəçarpan məqam odur ki, müəllimlər sağlamlıq imkanları məhdud uşaqlarla tipik uşaqların dərsliklərinin ayrılmasını istəmirlər. Çünki bunun İT prinsiplərinə zidd olduğunu, yenə də ayrı-sekçiliyə gətirib çıxardığını düşünürlər. Ona görə ortaq dərsliklərin, uşaqları öyrətməklə yanaşı müəyyən mənada əyləndirici, onların maraqlarını cəlb edəcək dərsliklərin, vəsaitlərin hazırlanması tərəfdarıdırlar.

Aşağıdakı diaqramda isə növbəti altılığa daxil olan fəaliyyətlər və tədbirlər göstərilmişdir. Regional Resurs Mərkəzlərinin yaradılmasını regionda olan müəllimlər, tələbələr, mütəxəssislər çox istəyirlər. Yuxarıdakı göstəricilərdən də bəlli oldu ki, regionda yaşayanlar üçün dərs vəsaitlərinin, maarifləndirici materialların, təlimlərin, treninqlərin əlçatanlığı aşağı səviyyədədir.




## XÜLASƏ

Azərbaycanda inklüziv təhsil sisteminin yaradılmasında imkanlar və çətinliklərin öyrənilməsi, potensial xidmətlərin xəritələşdirilməsi üzrə hazırkı tədqiqatın əsas məqsədi ölkədə İT-in planlaşdırılması və tətbiq edilməsi ilə bağlı yetərli sübutlu bazanın toplanması olub. Araşdırma Azərbaycanda inklüziv təhsilə olan ehtiyacların qiymətləndirilməsinə və bu prosesdə iştirak edəcək müəllimlərin və digər mütəxəssislərin mövcud vəziyyətini, problemlərinin və ehtiyaclarının müəyyən edilməsinə yönəlmişdir.

Azərbaycanda inklüziv təhsil ilə bağlı məlumatlılıq səviyyəsi kifayət qədər qənaətbəxş deyil. İT ilə bağlı məlumatların əldə edilməsində problemlər mövcuddur ki, bu da bir çox hallarda mütəxəssislərə çətinlik yaradır.

Azərbaycanda İT sisteminin tətbiqi zəruridir. Lakin İT-in tətbiqi üçün lazım olan amillərin mövcud vəziyyəti aşağı səviyyədədir və bir çox maneələr mövcuddur. Həmçinin, müəllimlərin professional, didaktik və psixoloji vəziyyəti o qədər də yüksək deyil.

İT sisteminin tətbiqi uşaqların keyfiyyətli təhsilə əlçatanlığının artırılması ilə yanaşı, uşaqların cəmiyyətin bərabərhüquqlu üzvünə çevrilməsinə, cəmiyyətə adaptasiya olunmasına, tolerantlığın artmasına, əlilliyi olan uşaqların və əlilliyi olan şəxslərin cəmiyyətdən təcrid olunmasının qarşısının alınmasına, əlilliyi olan şəxslərin asılılığının aradan qalxmasına və onların müstəqil şəxsə çevrilməsinə və nəticədə dövlətin sosial yükünün azalmasına gətirib çıxaracaq.

## V. VALİDEYNLƏRLƏ KEÇİRİLƏN SORĞUNUN NƏTİCƏLƏRİ

Sorğu Bakı şəhəri və Şamaxı, Quba, Şəki, Ağcabədi, Cəlilabad rayonlarında əlilliyi olan uşaqların valideynləri arasında keçirilmişdir. Respondentlərin region üzrə bölgüsünə əsasən sorğuda 53 nəfər Bakı, 16 nəfər Şəki, 16 nəfər Ağcabədi, 15 nəfər Quba, 18 nəfər Şamaxı və 16 nəfər Cəlilabaddan olmaqla ümumilikdə 134 nəfər iştirak etmişdir.







### Övladınız təhsil alırmı?

Sorğuda iştirak edən valideynlərin cavabına əsasən Bakı və regionlar üzrə 109 nəfər əlilliyi olan uşaq müxtəlif formalarda təhsil alır, 24 nəfər isə təhsil almır.

### Hansı səbəblərə görə təhsil almır?

Övladları təhsil almayan valideynlərin 80%-i onların məktəbə getməməsinin səbəbinin uşaqların sağlamlıq vəziyyəti ilə bağlı olduğunu, 12%-i məktəbin əlilliyi olan uşaqları qəbul etmədiyini, 4%-i infrastrukturun əlverişsiz olmasını, 4% valideyn isə uşağın təhsil almasını vacib hesab etmədiyini bildirmişdir. Övladlarının sağlamlıq vəziyyətinə görə məktəbə getmədiyini bildirən valideynlərin üstünlük təşkil etməsindən çıxış edərək demək olar ki, bu valideynlərin İT haqqında məlumatsızlığından xəbər verir.



Həmçinin, məktəblərin sağlamlıq imkanları məhdud uşaqları qəbul etməməsi onu göstərir ki, valideynlər övladlarının təhsil almasını istədiyi halda məktəb rəhbərliyi buna mane olur və valideynlər özləri məlumatsız olduğundan bu cavabla kifayətlənirlər.

**Siz istəyirsinizmi övladınız təhsil alsın?**

75% valideyn övladının təhsil almasını istəyir və bunun çox vacib olduğunu düşünür. 16,7% valideyn təhsil ola da bilər, olmaya da bilər, 8,3% valideyn isə xeyr, təhsilin heç bir faydası olmayacaq cavabını vermişdir. Cavablardan da göründüyü kimi övladlarının təhsil almasını istəyən valideynlər üstünlük təşkil edir. 25% valideyn təhsili övladlarının həyatında elə də vacib hesab etmirlər. Digər sorğudan və fokus qrup müzakirəsindən də bəlli oldu ki, bir çox valideynlər övladlarını təhsildən yayındırırlar. Bu isə valideynlərlə işin aparılması, onların maarifləndirilməsi məsələsinin zəruriliyini bir daha üzə çıxardır.




**Övladınız harada təhsil alır?**

38 nəfər əlilliyi olan uşaq ümumtəhsil məktəbində, 17 nəfər xüsusi məktəbdə, 54 nəfər evdə təhsil alır. Ümumtəhsil məktəbində və xüsusi məktəbdə təhsil alan sağlamlıq imkanları məhdud uşaqlar Bakıda, bunun əksinə evdə təhsil regionlarda üstünlük təşkil edir. Bu isə regionlarda xüsusi məktəblərin sayının azlığının, İT üçün şəraitin olmamasının, əhalinin məlumatsızlığının göstəricisidir. Həmçinin, regionlarda İT istiqamətində işlərin görülməsinin aktuallığını önə çıxarır.




**Məktəb övladınızın təhsil ehtiyacını qarşılaya bilirmi?**

Məktəbin əlilliyi olan uşaqların ehtiyaclarını qarşılaması çox vacib məsələdir. Çünki məktəb mühiti uşaqların yalnız təhsil tələbatının deyil, digər sosial tələbatlarının da ödənməsi baxımından önəmlidir. 36.4% faiz valideyn məktəbin övladlarının təhsil ilə bağlı

hər bir ehtiyaclarını qarşıladığını, 54.2% valideyn müəyyən qədər qarşılasa da problemlərin çox olduğunu, 7.5% valideyn heç bir ehtiyacın qarşılanmadığını bildirmişdir. Məktəblər həm infrastruktur baxımından, həm pedaqoji kadrların əlilliyi olan uşaqlarla işləməkdə səriştəsizliyi baxımından, həm də dərsliklər və metodik vəsaitlərinin olmaması baxımından valideynləri qane etmir. Problemlərin çox olduğunu bildirən valideynlərin üstünlük təşkil etməsi mövcud çatışmazlıqların yaratdığı problemlərin həll olunmasının vacibliyini bir az da qabardır.




**Məktəb mühitini övladlarınızın təhsili üçün müsbət, əlverişli hesab edirsinizmi?**

51.2% valideyn məktəb mühitini övladının təhsili üçün olduqca müsbət, əlverişli, 37.2% demək olar ki, müsbət hesab edir. 7.4% valideyn isə məktəb mühitini övladlarının inkişafı üçün müsbət, əlverişli hesab etmir. Nəticələrdən də göründüyü kimi, məktəbin övladlarının inkişafı üçün müsbət, əlverişli olduğunu düşünən valideynlər üstünlük təşkil edir. Burada vurğulamaq lazımdır ki, övladları evdə təhsil alan valideynlərin əksəriyyəti də məktəb mühitini uşağın inkişafı üçün əlverişli hesab edir. Valideynlər övladlarının məktəbdə hərtərəfli inkişaf edəcəyi fikrindədirlər.

Məktəb mühitini əlverişli hesab etməyən valideynlər azlıq təşkil etsə də buna da diqqət etmək lazımdır. Çünki o valideynlər məktəb mühitini əlverişsiz hesab etdiyindən, övladlarının məktəbdə təhsil almasında maraqlı olmayacaq. Bu da nəticədə uşaqların daha keyfiyyətli təhsildən yayınmasına, uşaqlarda sosiallaşma bacarıqlarının inkişaf etməməsinə və cəmiyyətdən təcrid olunmasına səbəb olacaqdır.




**Müəllimlərin öyrətmə bacarığı sizi ümumilikdə qane edirmi?**

Əlilliyi olan uşaqların inkişafında, təhsil almasında əsas hərəkətverici qüvvə müəllimlərdir. Bu prosesdə müəllimlərin üzərinə çox böyük iş düşür. Xüsusən də müəllimlərin öyrətmə bacarığı güclü olmalıdır. Valideynlərin 74.5%-ni müəllimlərin öyrətmə bacarığı qane edir. Bu müəllimlərin əslində əlilliyi olan uşaqlarla işləmə bacarığının olmasını, lakin bunun təkmilləşdirilməyə ehtiyacının olduğunu göstərir. Digər məqam isə valideynlər bu sahədə məlumatsız olduğundan müəllimlərin övladlarına yanaşmasının, tədris metodunun düzgün olduğunu düşünür. Bir çox hallarda valideynlərin sağlamlıq imkanları məhdud övladlarından yüksək təhsil göstəriciləri gözləməməsi, uşağın primitiv bilikləri olması ilə kifayətlənməsi də bu sahədə valideynlərin müəllimlərə qarşı daha az tələbkarlıq göstərməsinə səbəb olur. Bu da öz növbəsində müəllimlərin öz üzərində daha az işləməsi, əlilliyi olan uşaqlarla işləmə texnologiyalarına xüsusi diqqət etməməsi, tədrisdə ənənəvi metoddan istifadə etməsi ilə nəticələnir.



**Müəllimlərin övladlarınıza yanaşma tərzi sizi ümumilikdə qane edirmi?**

Valideynlərin 80.7%-i müəllimlərin əlilliyi olan uşaqlara yanaşma tərzi qane edir. 15.6% valideyn isə orta mövqedədir, onlar həm qane etdiyini, həm də bəzi məqamlarda qane etmədiyini düşünür. Burada vurğulamaq lazımdır ki, valideynlər sağlamlıq imkanları məhdud uşaqlarla davranış qaydaları haqqında məlumatsız olduğundan müəllimlərin onların övladları ilə davranışının düzgün olduğunu düşünürlər. Bəlkə də valideynlər bu haqda məlumatlı olsaydı müəllimlərin övladlarına yanaşma tərzindən razı qalmaya bilərdilər. Valideynlər əsasən müəllimlərin onların övladları ilə mehriban davranmasına, övladlarına hər hansı fiziki xəsarət yetirməməsinə diqqət edir. Müəllim bunu etmədiyi halda valideynlər düşünür ki, müəllimlərin övladlarına yanaşma tərzi düzgündür. Müəllimlərlə aparılan sorğunun nəticələrindən də aydın oldu ki, müəllimlərin xüsusi metodu, yanaşma texnikası yoxdur. Nəticələrdən də görünür ki, əlilliyi olan uşaqlarla işləyərkən onlara qarşı rəhmlilik əsas götürülür və bir növ bu uşaqlara "yazıq" kimi baxıldığından onlara bu prinsipdən yanaşırlar. Təbii ki, bu da düzgün yanaşma deyil. Hər bir uşağa qarşı, humanizm göstərilməlidir, lakin burada humanizm prinsiplərinin düzgün tətbiq olunmasına, stiqma və stereotip yanaşmalardan uzaq durulmasına diqqət etmək lazımdır.




**Əlilliyi olan uşaqların özlərini məktəbdə rahat hiss etmələri üçün zəruri olan şərtlər hansılardır?**

Əlilliyi olan uşaqların məktəbdə oxuması üçün bir neçə mühüm şərt vardır ki, bu şərtlərə valideynlərin münasibətini bilmək maraqlı və faydalıdır. Valideynlərin əksəriyyəti, yəni 81%-i digər şagirdlərin və onların valideynlərinin tolerant münasibət göstərməsinin əsas şərt olduğunu düşünür. Azərbaycanın tolerantlıq ənənələrinə əsaslanaraq və maarifləndirmə vasitəsilə tipik inkişaf edən uşaqların valideynlərinin münasibətinin dəyişdirilməsi mümkündür. Çünki məktəb müəllimləri də fokus qrup müzakirələrində əlilliyi olan uşaqların digər uşaqlarla eyni sinifdə təhsil almasına narazılıq bildirən valideynlərin müəyyən söhbətdən sonra normal qarşıladıqlarını bildirmişlər. Bu bir daha əhali arasında maarifləndirmə məsələsinin vacibliyini göstərir. Həmçinin tolerant münasibətin olmaması sonda valideynlərin övladlarını evə qapaması, cəmiyyətdən təcrid etməsi ehtimalını da artırır.

73% valideyn müəllimlərin bilik səviyyəsinin yüksək olmasını, 56% məktəbdə müəllimlə yanaşı digər mütəxəssisin olmasını, 53% məktəbin şəraitinin uyğunlaşdırılmasını, 43% müəllimlərin psixoloji hazırlıqlı olmasını, düzgün yanaşma tərzi seçməsini əsas şərtlər kimi görür. Nəticələrdən bir daha aydın olur ki, valideynlər məktəb və müəllimin əlilliyi olan uşaqların ehtiyaclarına cavab verməsini əsas şərt kimi görür. 11% valideynin bu haqda fikir söyləməkdə çətinlik çəkməsi də valideynlərin övladlarının ehtiyacları ilə əlaqəli heç bir fikrinin olmadığının göstəricisidir. Bu da uşaqların inkişafı, təhsil ehtiyacının ödənməsi baxımından problem yaradır. Övladının nəyə ehtiyacının olduğunu bilməyən valideyn onun inkişafı üçün nələr edəcəyini, hara müraciət edəcəyini də bilmir. Bu da nəticədə uşağın təhsildən kənar qalmasına səbəb olur. Aparılan təhlilin nəticələrdən belə qənaətə gəlmək olar ki, inklüziv təhsilin tətbiqini şərtləndirən əsas amillərdən biri valideynlərin mütəmadi maarifləndirilməsidir.



**Siz təhsil prosesində müəllimlərdə və psixoloqlarda hansı əsas keyfiyyətləri görmək istərdiniz?**

Müəllimlərin peşəkarlığının əsas göstəricisi bilik olmaqla yanaşı, digər vacib tərəf müəllimlərin və mütəxəssislərin şəxsi keyfiyyətləridir. Valideynlərin 86%-i müəllimlərdə və psixoloqlarda tolerantlıq, 83%-i humanizm, 55%-i səbrlilik görmək istəyir. 42% isə müəllimlərin qayğıkeş olmasını istəyir. Ümumilikdə götürdükdə sadalanan xüsusiyyətlərin hər birinin müəllimlərdə olması vacib şərtdir. Valideynlərin müəllimlərdə görmək istədikləri keyfiyyətlər İT prinsipləri ilə birbaşa bağlıdır. Hətta müəllimlərin özləri də əlilliyi olan uşaqlarla işləyəcək müəllimlərin və mütəxəssislərin xüsusi seçim əsasında, əsas da şəxsi keyfiyyətlərinin yoxlanaraq seçilməsinin tərəfdarıdırlar. Sadalanan keyfiyyətlər həm tipik uşaqlarla, həm də əlilliyi olan uşaqlarla işləyən müəllimlərdə mütləq olmalıdır. Bu keyfiyyətlər tədris prosesinin daha keyfiyyətli olmasına birbaşa təsir edir.




**Övladınızın tipik inkişaf edən uşaqlarla birlikdə eyni sinifdə təhsil almasına münasibətiniz necədir?**

Övladlarının tipik uşaqlarla birgə təhsil almasına valideynlərin 40.6%-i çox yaxşı, 30.1%-i yaxşı münasibət göstərir. Valideynlərin 18.8%-i nə yaxşı, nə pis, 5.3%-i pis münasibət göstərir. Ümumilikdə yaxşı münasibət göstərən valideynlər üstünlük (70.7%) təşkil edir. Bu valideynlərin övladlarını gizlətməməsi, cəmiyyətdən təcrid etməməsi, həmçinin əlilliyi olan uşaqların keyfiyyətli təhsil alması baxımından çox vacibdir. Bu, növbəti mərhələdə İT ölkə üzrə məktəblərdə tətbiq olunduğu zaman uşaqların məktəbə cəlb olunmasında daha az problemlərin yaranacağına işarə edir. 5.3% valideynin pis münasibət göstərməsi onların övladlarını təhsildən yayındırması ehtimalını verir ki, bu da belə valideynlərlə daha çox iş görülməsini zəruri edir.




**Sizcə inklüziv təhsilin övladlarınız üçün hansı təsirləri ola bilər?**

Valideynlərin İT-in onların övladlarının inkişafına təsiri barədə fikirərinin təhlili də aparılmışdır. Ümumilikdə valideynlər yaxşı təsiri ola biləcəyini düşünür, yalnız 13% heç bir təsirin olmayacağını düşünür. 53% valideyn əlilliyi olan uşaqların inkişafına və sosiallaşmasına müsbət təsir göstərəcəyini düşünür. Bu da bir daha məktəbin yalnız təhsil baxımından deyil, uşaqların cəmiyyətə adaptasiyası baxımından önəmli vasitə olmasını vurğulayır. Valideynlərin 47%-i əlilliyi olan uşaqların dərs prosesində digər həmyaşıdları ilə birgə iştirak edəcəyini düşünür. Bununla da uşaqlar arasında baryer götürüləcək.




Valideynlərin 38%-i şagirdlər arasında bir-birinə qarşı anlaşma və hörmət hissinin inkişaf edəcəyini, 22%-i onların yüksək, keyfiyyətli təhsilə əlçatanlığının artacağını düşünür. Nəticələrdən də görünür ki, valideynlər ilk öncə məktəb mühitində sosial bacarıqların artacağını düşünürlər. Diqqət etdikdə aydın olur ki, övladlarının keyfiyyətli təhsil əldə edəcəyini düşünən valideynlər daha azdır. Bu da valideynlərin uşaqlarının daha çox cəmiyyətdə, öz həmyaşıdları ilə ünsiyyətdə, bərabərhüquqlu şəxs kimi yaşamasına və inkişaf etməsinə onların təhsilindən daha çox önəm verməsini göstərir.

Lakin bu o demək deyil ki, valideynlər üçün övladlarının təhsili önəmli deyil. Burada sadəcə olaraq bu, valideynlərin övladlarının yaşına və sağlamlıq durumuna görə qavraması, təfəkkür qabiliyyəti, uşağın inkişaf xüsusiyyətləri ilə bağlı yetərincə məlumatlı olmamasından irəli gəlir.

## Uşağınızın hansı başqa həyat planları var?

Bütün uşaqlara verilən tipik bir sual var. Böyüyəndə nə olmaq istəyirsən? Təbii olaraq bu sual əlilliyi olan uşaqlar üçün də aktualdır. Və bu uşaqların gələcək planlarının olub olmamasını bilmək çox maraqlı və əhəmiyyətlidir. Valideynlərinin fikrinə görə, 40.3% uşağın həyat planı təhsilini davam etmək, 32.8%-in peşə əldə etmək, 6%-nin işləməkdir. 17.9% uşağın heç bir planı yoxdur. Planlardan görünür ki, bu uşaqların da gələcəklə bağlı arzuları və planları var. Lakin onların arzularını və planlarını reallaşdırmağa mane olan müxtəlif çətinliklər mövcuddur. İT-in tətbiqi sahəsində mövcud problemlərin aradan qaldırılması o uşaqların arzularına çatmaları, digər həmyaşıdlarından geri qalmamaları, ayrı-seçkiliyə məruz qalmamaları, gələcəkdə cəmiyyətin aktiv üzvü olmaları baxımından çox vacibdir. Bu məsələ təşkilati baxımından zəruri olmaqla yanaşı, mənəvi baxımdan da önəmlidir. 17.9% uşağın heç bir planının olmaması da nəzərə çarpan bir haldır. Bu o deməkdir ki, o uşaqlar özlərinin gələcəyini görmürlər. İT tətbiq olunsa bu problem aradan qalxa bilər. Belə ki, bu uşaqlar həm təhsil aldıqca, həm də cəmiyyətdə iştirak etdikcə onlarda özləri ilə bağlı müəyyən arzular, planlar yaranacaq.




## Sizcə, inklüziv təhsil nədir?

Ümumilikdə götürsək insanlar arasında İT haqda məlumatlılıq səviyyəsi yetərincə yüksək deyil. Valideynlərin 49.3%-i İT-in əlilliyi olan uşaqların digər uşaqlarla birgə təhsil alması olduğunu, 17.9%-i əlilliyi olan uşaqlar üçün sinfin yaradılması olduğunu bildirmişdir. 30% valideyn İT-in nə olduğunu bilmir. İT-in nə olduğunu bilən valideynlərlə bilməyən valideynlərin nisbəti bərabərdir. Regionlarda yaşayan valideynlərlə yanaşı Bakıda yaşayan valideynlərin də əksəriyyəti İT-in nə olduğunu bilmir. Bu isə maarifləndirmənin bütün ölkə üzrə aparılmasının zəruriliyini bir daha göstərir.




**Valideynlər üçün hər hansı metodik vasitələrə ehtiyac varmı?**

Əlilliyi olan uşaqların valideynləri övladlarının sağlamlıq durumu, onların inkişafı ilə bağlı məlumat əldə etməkdə böyük problem yaşayır. Çünki azərbaycan dilində kifayət qədər material, məlumat yoxdur. Tədqiqat çərçivəsində bununla bağlı valideynlərin fikri öyrənilmişdir. Respondentlərin 76.1%-i valideynlər üçün hər hansı metodik vəsaitə ehtiyacın olduğunu, bunun vacib olduğunu bidirmişdir. Valideynlərin 19.4%-nin bununla bağlı fikri yoxdur, yalnız 3% valideyn ehtiyacın olmadığını, metodik vəsaitlərin faydasının olmayacağını düşünür. Bu onu göstərir ki, əlilliyi olan uşaqların xüsusiyyətləri, onların inkişaf göstəriciləri, onlarla davranış, onların inkişafına dəstəkverici fəaliyyətlər və s. mövzuları əhatə edən vəsaitlərə valideynlərin çox ehtiyacı var.




Bu vəsaitlərin olması gələcəkdə valideynlərin övladlarını təhsilə hazırlaması, onları cəmiyyətin aktiv üzvü kimi böyütməsi baxımından faydalı olacaqdır. Bu da öz növbəsində həm əlilliyi olan uşaqların inkişafına, həm cəmiyyətin əlilliyi olan şəxslərə tolerant, humanist münasibət göstərməsinə, həm də əlilliyi olan uşaqları cəmiyyətin aktiv üzvünə çevirməklə dövlətin sosial yükünün azalmasına təsir göstərəcək.

**Bu sahədə vəziyyəti yaxşılaşdırmaq üçün sizin konkret təklif və tövsiyələriniz nədən ibarətdir?**

Respondentlərin 46%-inin valideynlər üçün metodik vəsaitlərin hazırlanmasını təklif etməsi də bir daha yuxarıda sadalanan fikirləri təsdiqləyir. İT sahəsində vəziyyətin yaxşılaşdırılması üçün valideynlərin 44%-i pedaqoji və təlimatçı kadrların hazırlanmasını təklif etmişdir. 44% respondent İT ilə bağlı müsbət ictimai rəyin formalaşdırılmasını və maarifləndirmə tədbirlərinin keçirilməsini təklif edir. 43% maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi, 33%-i resurs mərkəzlərinin yaradılması təklifini vermişdir.




## XÜLASƏ

Əlilliyi olan uşaqların valideynləri övladlarının məktəbdə təhsil almasını zəruri hesab edir. Uşaqların məktəbə getməsinə əsas maneə məktəblərin əlilliyi olan uşaqları qəbul etməməsi, məktəblərin infrastrukturunun əlverişsiz olması, cəmiyyətdə olan müəyyən neqativ fikirlər və münasibətlərdir. Məktəb mühiti bir çox sağlamlıq imkanları məhdud uşaqların ehtiyaclarını tam ödəyə bilmir. Müəllimlərin bu sahədə kifayət qədər çatışmayan tərəfləri mövcuddur. Onların təkmilləşməyə çox ehtiyacı var. Valideynlər arasında məlumatlılıq səviyyəsi çox aşağıdır. Valideynlər müxtəlif metodik vəsaitlərə, maarifləndirmə materiallarına çox böyük ehtiyac duyur.

Nəticələrdən də görürük ki, İT-in tətbiqində multidissiplinar yanaşma olmalıdır. Yəni məsələyə kompleks yanaşmaq, müxtəlif komponentləri eyni anda inkişaf etdirmək, müxtəlif qurumları bu məsələyə cəlb etmək, onların üzərinə düşən işlərin həyata keçirilməsini təmin etmək lazımdır.

## VI. FOKUS QRUP MÜZAKİRƏLƏRİNİN NƏTİCƏLƏRİ

### Azərbaycan Dövlət Pedaqoji Universitetinin tələbə və məzunları

#### Əlilliyi olan uşaqlara dair bəzi statistik göstəriciləri haqqında məlumatlılıq

"Əlilliyi olan **uşaqların bəzi statistik göstəriciləri haqqında məlumatlılıq**" baxımından tələbələrin əksəriyyəti ya tam məlumatsız və yaxud çox az və qeyri-dəqiq məlumatlara malikdirlər. Belə ki, "**Ölkəmizdə hazırda təxminən neçə əlilliyi olan uşaq var?**" sualına sadəcə 2 nəfər "60000 nəfərdən çox" və qalanı "bilmirəm", "məlumatım yoxdur" cavabını veriblər. Bu isə potensial müəllimlərin birbaşa olaraq ixtisaslarına aid olan bir mövzu haqda kifayət qədər məlumata malik olmadıqlarını deməyə əsas verir. Bu haqda kifayət qədər məlumata malik olmayan potensial müəllimlər statistik göstəricilərlə əlaqədar digər suallara da dəqiq cavab verə bilməyiblər. Belə ki, moderatorun xüsusi qayğıya ehtiyacı olan uşaqların sayı haqda verdiyi məlumatla razı olub-olmadıqlarını bildirməli olduqları halda respondentlərin əksəriyyəti "bilmirəm" və "məlumatım yoxdur" kimi cavablara üstünlük veriblər (2 nəfər istisna olmaqla, onlar həmin statistik məlumatla razı olduqlarını bildiriblər).

"**Bu uşaqların neçə faizi məktəbə heç getmirlər?**" sualına respondentlər 30% (2), 25-30% (1), 70% (1), 70-80% (2), 60% (1), 12000-dən çox (1) kimi fərqli cavablar versələr də onların bir çoxu "bilmirəm" cavabı veriblər. Əlaqədar sualla bağlı moderatorun verdiyi dəqiq statistik məlumatla bağlı respondentlərin fikri belə olmuşdur: "məncə bu daha çoxdur" (1), "bundan da azdır" (1), "həmin uşaqların heç 50%-i də deyil" (1) və respondentlərin qalan hissəsi "bilmirəm" (17), "heç bir fikrim yoxdur" (28) kimi cavablara üstünlük veriblər.

"**Sizin rayonunuzda, şəhərinizdə/kəndinizdə hazırda təxminən neçə əlilliyi olan uşaq var?**" sualına respondentlərdən 1 nəfəri 4000 uşaq**,** 1 nəfəri 3000 uşaq**,** 2 nəfəri 200-300 uşaq**,** 1 nəfəri 400-500, 1 nəfəri 100-150 uşaq var və 1 nəfəri "məncə Qubanın məktəbələrinə nəzər salsaq 1500-ə yaxın əlillliyi olan uşaq təhsil alar" demişdir. Respondentlərin bəziləri isə konkret rəqəm söyləməkdənsə ümumi fikir söyləməyə üstünlük veriblər (23). Onlardan 1 nəfəri "zənnimcə bu kəndlərin sayına görə fərqlənir", 1 nəfəri "kənddə uşaqların məktəbə cəlb olunması daha aşağı olur rayon yerlərində isə bu say bir az artıq ola bilər", 1 nəfəri "məncə daha az uşaq məktəbə gedir", 1 nəfəri "Şamaxı üzrə çox azdır təhsilə cəlb olunan" demişdir. Digər respondentlər bu haqda məlumatsız olduğunu və heç nə bilmədiklərini qeyd ediblər (18).

"**Bu uşaqların neçə faizi məktəbə heç getmirlər?**" sualına "Hamısı gedər yəqin" (1), "Gedən yoxdur" (1), "Getmirlər, evdə təhsilə cəlb olunurlar" (1) kimi ümumi cavablarla yanaşı "10%-dən azdır" (2), "30 faizi" (2), "20 faizi" (1), "80 faiz" (1), "70-80 faiz" (1) kimi cavablar da verilmişdir. Digər respondentlər isə sualı "bilmirəm" (38) deyə cavablandırmışlar. Respondentlərin biri isə bu uşaqların məktəbə getməməsi haqda dəqiq rəqəm deməsə də valideyn məsuliyyətsizliyini bunun əsas səbəbi kimi göstərir.

“**Məktəbə heç getməyən əlilliyi olan uşaqlarla bağlı səslənən dəqiq statistik məlumata münasibətə**” gəldikdə respondentlərin əksəriyyəti bu haqda lazımi məlumata malik olmadıqları üçün heç bir fikir söyləməyib, münasibət bildirməmişdilər (44). Onlardan sadəcə 1 nəfəri “Qubada 152 nəfərin təhsil alması təxminən bu uşaqların 152 nəfərinin təhsildən kənarda qalmaması deməkdir”, 2 nəfəri bu uşaqların təhsilə cəlb olmasının vacibliyini vurğulayıb və 1 nəfəri bu göstəricinin aşağı olduğunu bildirib. Ümumilikdə tələbələr öz təhsil aldıqları rayonlarda əlilliyi olan uşaqların sayı və onların neçə faizinin təhsilə cəlb olunub, neçə faizinin təhsildən kənarda qalması haqda kifayət qədər məlumata malik deyillər.

**İnklüziv təhsilə ümumi münasibət və bu sahədə mövcud olan vəziyyətin qiymətləndirilməsi**

“**Siz əlilliyi olan uşaqların təhsili sahəsində mövcud vəziyyəti necə qiymətləndirirsiniz?**” sualına cavab olaraq respondentlərin (tələbələrin) əksəriyyəti vəziyyəti qənaətbəxş hesab etmir və vəziyyətin yaxşı olmadığını bildiriblər (42 nəfər), 2 nəfər isə normal olduğunu bildirib və 1 nəfər bu sualı cavablandırmayıb. Vəziyyətin qənaətbəxş olmadığını deyənlər kənd yerlərində vəziyyətin daha pis olduğunu bildiriblər (2 nəfər), bəziləri isə bu uşaqların təhsilə cəlb olunduğunu desələr də, bunun formal xarakter daşıdığını bildiriblər (2). Respondentlərdən 4 nəfəri təhsil ocaqlarında belə əlilliyi olan uşaqların digərləri ilə müqayisədə diqqətdən kənarda qaldıqlarını bildirirlər.

“**Siz əlilliyi olan uşaqların öz həmyaşıdları ilə məktəbdə eyni sinifdə oxumağını vacib və məqsədəuyğun hesab edirsinizmi? Siz bunun lehinə yoxsa əleyhinəsiz? Niyə məhz belə düşünürsünüz?**” sualına cavab olaraq respondentlərdən 14 nəfəri qeyd edilən fikirlə razı olmadığını (əleyhinə olduğunu) , 8 nəfər isə razı olduğunu (lehinə olduğunu bildiriblər), 26 nəfər isə müəyyən şərtlər daxilində razı olduqlarını bildiriblər.

Bu uşaqların öz yaşıdları ilə eyni sinifdə təhsil alması fikrinin əleyhinə olanlar aşağıdakı səbəbləri fikirlərinə əsas olaraq gətirmişlər:

- uşaqlar yaşıdları tərəfindən psixoloji təzyiqə məruz qala, gülüş obyektinə çevrilə bilərlər;
- müəyyən məhdudiyyətləri olduğu üçün sağlam uşaqların əhatəsində onlar kimi hərəkət edə bilmədikdə sıxılacaqlar;
- digər uşaqların geri qalmasına səbəb olarlar;
- sağlam uşaqların proqramlarını qavraya bilməzlər;
- onlar üçün xüsusi müəllim lazımdı;
- əqli və fiziki məhdudiyyət uşağın daha gec qavraması və gec başa düşməsinə səbəb olur;
- xüsusi məktəblər olsa yaxşıdır çünki sağlam uşaqlar onları təqlid edərək bəzi problemlərlə rastlaşa bilərlər və s.

Yaşıdları ilə birgə eyni sinifdə təhsil almağın tərəfdarı olanlar düşünürlər ki, əlilliyi olan uşaqlarda tipik uşaqların yanında normal fəaliyyətə motivasiya yaranmış olacaq, onların uğurunu görüb uğur qazanmaq istəyəcək, onların sosiallaşması və özünü bir fərd kimi

görməsinə şərait yaranmış olacaq, özlərinə qapanmazlar, cəmiyyətdə özlərinə mövqe tuta bilərlər.

"**İT sisteminin tətbiqi prosesinin hər hansı bir mənfi nəticəsi və zərərli təsiri ola bilərmi? Əgər olarsa, məhz hansı?**" sualına 27 nəfər "heç bir mənfi təsiri ola bilməz" demiş, 21 nəfər isə müxtəlif mənfi təsirlərin olduğunu qeyd ediblər. Qeyd edilən mənfi təsirlər isə yuxarıdakı sualda səslənən fikrin əleyhinə olanların qeyd etdiyi mənfi təsirləri demək olar ki, təkrar qeyd ediblər.

"**İT sisteminin tətbiqi prosesində hansı əsas problemlər, çətinliklər və maneələr mövcuddur?**" sualına iştirakçı tələbələrin demək olar ki əksəriyyətinin cavabı müsbət olub və onlar həmin maneələri qısaca belə qeyd ediblər:

- Valideynlərin mənfi yanaşması və uşaqlarını gizlətməsi (35);
- Peşəkar müəllimlər və psixoloqların olmaması (28);
- Onlar üçün lazımi şəraitin və vəsaitin olmaması (48);
- Valideynlərin laqeyd olması (38);
- Maarifləndirmənin olmaması (48);
- Bu sahəyə az maraq göstərilib (12):
- Müəllimin sinfi düzgün idarə edə bilməməsi:
- Maddi vəziyyət də təsir göstərə bilər (7):
- Tipik uşaqların valideynlərinin narazılığı (32).

### Tələbələrin və məzunların İT-in tətbiqinə/həyata keçirilməsinə indiki hazırlıq səviyyəsinin qiymətləndirilməsi

"**Tələbələrin və məzunların İT-in tətbiqinə/həyata keçirilməsinə indiki hazırlıq səviyyəsinin qiymətləndirilməsi**" ilə bağlı respondentlərin verdiyi qiymət aşağıdakı kimidir:

Aşağı (23), orta (5), çox aşağı (12), nəzəri cəhətdən normal (1), tələbələr məlumatsızdır (1), cavabsız (3), bizdə belə bir fənn keçirilmir (1), fənn keçirilir amma daha aşağı kurslardan başlanmalıdır (1), bilmirəm (1).

"**Tələbələrin və gənc mütəxəssislərin İT sahəsində ümumi məlumatlılıq hazırlığı (müvafiq nəzəriyyələr, prinsiplər və texnoloji yanaşmalar sahəsində məlumatlılıq) indiki hazırlıq səviyyəsini necə qiymətləndirərdiniz? Niyə belə düşünürsünüz?**" sualına iştirakçılar belə cavab vermişdilər. Orta (2), aşağı (26), çox aşağı (15), məlumat var (1), nəzəri bilik var (2), kifayət qədər bilik var (1), yaxşıdır (1).

İştirakçılar əlavə olaraq cavablarını aşağıdakı kimi izah etmişdilər: praktika yoxdur (32), universitetdə İT-in adı keçir amma ciddi təlim yoxdur, təkmilləşdirmə yoxdu, sonuncu kursda olmağımıza baxmayaraq həm nəzəri, həm praktik cəhətdən zəifik, müəyyən hissəsində hazırlıq səviyyəsi yaxşıdır və konkret olaraq hamı zəifdir demək olmaz, səbrsizlik amili hazırlıq səviyyəsinə mənfi təsir edir (11), tolerantlıq səviyyəsi aşağıdır (5).

**İT sahəsində resursların mövcudluğu və əlçatanlığının qiymətləndirilməsi**

"**İT sahəsində müasir dərsliklərin və tədris/didaktik materialların (metodiki vəsaitlər, dərsliklər) mövcudluğu və əlçatanlığı haqqında fikriniz nədir?**" ilə bağlı respondentlərin fikirləri aşağıdakı kimi olmuşdur: Heç bir fikrim yoxdur, material yoxdur (7), material azdır (39), tələbələrin maraqsız və passivdir, vəsait haqda tələbələr məlumatsızdır (2).

"**İT sahəsində xüsusi təlim proqramlarının və kurrikulumun mövcudluğu və əlçatanlığı, eləcə də inklüziv təhsil üzrə yeni modulların daxil edilməsi haqqında fikriniz nədir?**" yeni və xüsusi proqramlar yoxdur ancaq olsa yaxşıdır (43) və yeni modellər daxil edilməlidir (38), təlim proqramlarının və kurrikulum sənəd üzrə olmamalı və tətbiq olunmalıdır (23).

"**İT sahəsində müasir tədris üsullarının və innovativ texnologiyaların yaradılması və tətbiqi haqqında fikriniz nədir?**" yaradılmalıdır və yaradılması yaxşıdır (39), mövcuddur amma əlçatan deyil (17), bəlkə də var amma biz bilmirik (28), innovativ texnologiyadan istifadə zəruridir (48) .

"**Əlilliyi olan uşaqlar üçün xüsusi qiymətləndirmə metodlarının mövcudluğu və əlçatanlığı haqqında fikriniz nədir?**" müsbətdir (2), irəliləyişdir (1), bizdə xüsusi qiymətləndirmə metodu yoxdur (2), xüsusi qiymətləndirməyə ehtiyac yoxdur (15), bu uşaqlar fərqli vəziyyətdə olduğu üçün qiymətləndirmə metodları hamısı üçün eyni ola bilməz (11), xüsusi qiymətləndirmə metodu olmalıdır (17).

"**İT-in təşkili üçün təhsil müəssisələrində müvafiq şəraitin təmin olunması haqqında fikriniz nədir?**" texnologiyalarla məktəb təmin olunmalıdır (39) (məsələn xüsusi kitablar, kompüterlər, panduslar və s.), hətta məktəbdən kənarda da şərait olmalıdır (27), məktəbdə şərait yoxdur (48), müyəssər nəqliyyat sistemi olmalıdır (12), praktik fəaliyyətim olmayıb deyə bilmirəm (1), şəraitin yaradılması rayonlarda və kəndlərdə daha vacibdir (39), bizdə belə məktəb yoxdur (42), tələbələrə də öyrətməyə çalışmalıdırlar (23) .

"**Bunları vacib hesab edirsinizmi: Resurs Mərkəzlərinin yaradılması? Bu sahədə çalışan pedaqoji kadrlar və mütəxəssislərin peşəkar assosiasiyasının və şəbəkələrinin yaradılması? Pedaqoji kadrlar və mütəxəssislər üçün hazırlıq, ixtisaslaşdırma və təkmilləşdirmə kurslarının, treninqlərin keçirilməsi?**" bunlar çox vacibdir (48), fəaliyyət və yeni təcrübələri öyrənməyə kömək edir (38), bunlar rayonlarda da olmalıdır çünki əliliyi olan şəxslər yalnız Bakıda deyil (28) .

**İT sahəsində şəxsi təhsil və əmək fəaliyyəti (indiki və gələcək), təkliflər və tövsiyələr**

"**Siz İT haqqında məlumatı əsasən hansı mənbələrdən alırsınız? Əlavə ədəbiyyatlardan istifadə edirsiniz?**" sualına iştirakçılar belə cavab vermişdir: sosial şəbəkələrdən (30), tədbirlərdən (1), psixologiya tələbələrindən (1), heç araşdırmamışıq (15), internet (32), müəllimlər (mühazirə) (17), TV-dən (3), ötəri məlumat verilməsinə baxmayaraq psixologiya və pedaqogika kitablarından (14).

“**Siz İT ilə bağlı hər hansı bir fənnlər keçirsiniz? Bu fənnlərin tədrisi nə dərəcədə keyfiyyətlidir?**” bu fənn keçirilmir (48), pedaqogika və psixologiya fənni çərçivəsində bir az öyrənmişik (15).

“**Siz gələcəkdə bu sahədə işləmək istəyirsiniz, maraq göstərirsiniz? Əgər marağınız yoxdursa, bunun səbəbləri nədir? Əgər marağınız varsa, buna mane olan səbəblər nə ola bilər?**” işləmək istəyir və maraqlanır (15), işləmək istərdim (23) (bu sistem icra olsaydı, tələb olsaydı, sinifdə belə uşaqlar olsa işləyərəm, kifayət qədər bilik-bacarığa sahib ola bilsəm), maraq yarana bilər (2) (kurslar keçirilərsə, stimul olsa), işləmək istəmərəm (9) (çünki özümü hazır hiss etmirəm, İT ilə bağlı heç bir məlumatımız yoxdur, bütün məzunların bu sahədə məşğul olması heç də vacib deyil, çox səbr tələb edir (2), məktəblərdə lazımi şərait və avadanlıqlar yoxdur, valideynim icazə verməz).

“**Sizin nəzəri bilikləri praktikada tətbiq etmək imkanlarınız nə qədər çox və ya azdır? Praktiki işdə qarşılaşa biləcəyiniz hər hansı bir çətinlik gözləyirsinizmi?**” Təbiq imkanları var (Ağcəbədidə tədris mərkəzində) (1), azdır (çünki praktikaya işə yox nəzəriyyəyə üstünlük verilir) (48), 30-40 faiz köməyi olacaq (1) , qismən köməyi olacaq (1) .

Çətinliklər: çətinliklər gözlənir (biliyimiz və təcrübəmiz yoxdur, uşaqların emosional olması, dərsdə əyani heç nə olmur, kompüter bilmirik, nəzəriyyəni oxumuş praktika yoxdur, nəzəriyyənin tətbiqi zəminində imkanlarımız azdır, onlarla dil tapmaq çətindir, səbr-dözüm tələb edir) (8), çətinlik gözlənilmir (1), bilmirəm (praktik işləməmişik) (1).

“**Siz İT sahəsində işləyəcək potensial mütəxəssislər kimi bu sahədə mövcud çətinliklərin aradan qaldırılması yollarını nədə görürsüz?**” İT ilə bağlı konkret fənnin tədrisi (48), valideynləri məlumatlandırmaq (45), lazımı şərait və infrastrukturun yaradılması (6), bu uşaqların dəqiq qeydiyyata alınması və dəqiq statistik məlumat (2), onlara yaxşı münasibət (1), çətinliklərin araşdırılması və təcrübəli insanlardan istifadə (1), kurslar və tədbirlərin təşkili (39), İT haqda müəllimlərin məlumatlandırılması (40), beynəlxalq təcrübəni araşdırmaq (27), dərsliklər (29), savadlı kadr və peşəkar müəllimlər (36), TV vasitəsi ilə məlumatlandırma (1), praktik dərs saatlarının artırılması (29), İT təhsilinə görə informativ saytın yaradılması (1), bu uşaqların nailiyyələri haqda ictimaiyyəti məlumatlandırma (18), uşaqlarda motivasiyanın yaradılması (11), əyani vəsait (40), resusrs mərkəzinin yaradılması (40) .

Yuxarıdakı təklif və cavalara demək olar ki, dörd əsas istiqaməti ehtiva edir: İT ilə bağlı konkret fənnin tədrisi (48), məlumatlandırma (48), praktik iş üçün infrastruktur və şəraitin yaradılması (16), təlim sahəsində ciddi dəyişiklik və kadr hazırlığı (19) .

“**Sizin üçün Universitet tərəfindən İT sahəsində peşə/ karyera məsləhətləşmələri aparılmışdır?**” aparılmayıb (45), aparılıb (psixologiya müllimlərimiz) (2), Kurikulum keçəndə məsləhətləşmələr aparılıb (1).

“**Bu sahədə həyata keçirilən hər hansı bir layihə, tədbir və ya təşəbbüsü qeyd edə bilərsiniz? Siz hansısa belə layihələrdə, tədbirlərdə və ya təşəbbüslərdə şəxsən iştirak etmisinizmi? Əgər hə, hansında? Əgər hə, bunlar hansı təşkilatlar tərəfindən keçirilib?**” Etməmişik (45), bayram-şənlik kimi tədbirlərdə iştirak etmişəm (6), universitetin bir dəfə

təşkil etdiyi tədbirdə iştirak etmişik (2), Ombudsman tərəfindən təşkil edilmiş əlaqədar tədbirdə iştirak etmişik (1).

"**İT sahəsində vəziyyəti yaxşılaşdırmaq üçün, sizcə, hansı addımlar (layihələr, proqramlar, təşəbbüslər) atılmalıdır, həyata keçirilməlidir? Sizin konkret təklif və tövsiyələriniz nədən ibarətdir? Siz İT modelinin/sisteminin səmərəli tətbiqi üçün hansı tədbirləri və fəaliyyətləri zəruri hesab edirsiniz?**" xüsusi proqramlar və layihələrin hazırlanması (6), İT ilə mütəxəssis müəllimlər hazırlanmalı (34), Uşaqlarla praktik iş qrupu yaradılsın (2), İT üzrə fənn keçirilməlidir (48), Maarifləndirmə (46), könüllülərlərin işə cəlb edilməsi (17), şərait və vasitələr yaradılmalı (34), psixoloqların xidmətindən istifadə (21), xarici təcrübələrə müraciət (36), İT fəaliyyətinə nəzarət (23).

## Yekun hissə

"**Müzakirələrimizdən götürülən əsas ümumi nəticələr hansılardır/nədən ibarətdir?**" bizdə hazırlıq və məlumatlılıq səviyyəsi artmalıdır, uşaqlara münasibətimiz müsbət mənada dəyişməlidir, lazımi şərait yaradılmalıdır, təlimlər və tədbirlər universitet və məktəblərdə belə keçirilməlidi, maarifləndirmə işləri intensiv formada aparılmalıdır.

"**Xahiş edirəm, şəxsi nəticələrinizi qısaca bizimlə bölüşün.**" Bu sahəni öyrənməli, öz üzərimdə çalışmalıyam, təkmilləşməliyəm, araşdıracağam, problemlə bağlı fikirlərim tam dəyişdi, məndə könüllü işləmək həvəsi yarandı, bu sahədə işləmək istəyirəm, öncə İT mənim üçün sadəcə bir termin idi amma indi daha dərindən düşündüm, inkluziv təhsil biliklərimiz azdı, ayrı-seçkiliyə yol vermədən bu uşaqların təhsilinin yaxşılaşdırılmasına çalışmalıyıq.

## Azərbaycan Dövlət Pedaqoji Universitetinin professor-müəllim heyəti

## İnklüziv təhsilə ümumi münasibət və bu sahədə mövcud olan vəziyyətin qiymətləndirilməsi

"**Siz İT haqqında məlumatı əsasən hansı mənbələrdən alırsınız?**" sualının respondentlərin cavabı aşağıdakı kimi olmuşdur: internet (26), hazır materiallar/kitablar/dərsliklər (39), beynəlxalq konfrans materialları (8), ingilis/rus dilli ədəbiyyat (24), rəsmi əlaqədar araşdırmalar/sənədlər (3), kurslardan (9), treyninq (7), müşahidələrim (1).

"**Siz əlilliyi olan uşaqların təhsili sahəsində mövcud vəziyyəti necə qiymətləndirirsiniz?**" **Qənaətbəxş deyil** (37) (çünki çoxları evdə təhsil alır, xüsusi ilə rayonlarda, bu sahədə boşluqlar çoxdur, evdə təhsil formaldır və sənəd üzərindədir, cəmiyyət buna hazır deyil, uşaqlar psixoloji cəhətdən hazır deyil, valideyn maarifləndirilməli və sadəcə uşağa yardım almağı düşünməməli, valideyn və məktəblərin maddi təminatı zəifdir, dövlət proqramları daha təkmilləşməlidir, mütəxəssilər yetişdirilməlidir), **kafidir** (6), **çox pisdir** (10) (belə uşaqlar müəllimlərin dolanışıq obyektinə çevrilib, dərs saatı düzəlməyən

müəllimin saatlarını düzəltmək üçün bu yola əl atırlar, dövlət proqramları daha təkmilləşməlidir, uşaqlar formal olaraq evdə təhsil alır), hələki nəsə demək olmaz (1).

“**Siz əlilliyi olan uşaqların öz həmyaşıdları ilə məktəbdə eyni sinifdə oxumağını vacib və məqsədəuyğun hesab edirsinizmi? Siz bunun lehinə yoxsa əleyhinəsiz? Niyə məhz belə düşünürsünüz?**”

**Tərəfdarıyam** (49) (bu uşaqların hüquqlarının qorunması məhz elə burdan başlayır, valideynlər sağlam uşaqları bu uşaqlarla birlikdə olmağa hazırlamış olsalar tərəfdarıyam, uşaqların sosiallaşması üçün vacibdir, uşaqların mənəvi dəyərlərinin formalaşmasına müsbət təsir edir, özlərini cəmiyyətin bir üzvi kimi hiss etsinlər, amma uşaqlar hətta bəzi müəllimlər bunu əsasən yaxşı qarşılamır, bu vacibdir ancaq müəllimə köməkçi müəllim ayrılmalıdır, digər uşaqların fikrini yayındırır ), **Əleyhinəyəm** (8) (hələ buna hazır deyilik müəllim dərsi inklüziv uşaqlara yönəltsə digər uşaqlarla məşğul olmayacaq, əqli qüsurlu uşaqların digər şagirdlərlə eyni sinifdə təhsil alması mümkünsüzdür, sağlam insanlar arasında olduqda o hər an özünün əlil olduğunu görür, hiss edir və bu ona psixoloji təsirdir, bu uşaqların vəziyyəti sağlam adama mənəvi təsir və sarsıntılar yaradır, sosiallaşma üçün yaxşı olsa da dərsin keyfiyyəti aşağı düşə bilər).

“**Fikrinizcə, İT sisteminin tətbiqi hansı müsbət dəyişikliklərə və nəticələrə gətirib çıxarar?**” əlilliyi olan uşaqlar şəxsiyyət kimi formalaşıb özlərini cəmiyyətin bir fərdi kimi görəcək (27), onlara diqqət və qayğı artar (10), cəmiyyətə istedadlı fərdlər qazandırmış olarıq (35), özünəinam və güvənləri artar (22), valideynin yükü azalmış olacaq (20), sosial münasibətlərin humanistləşməsi (3), hüquqları bərpa olmuş olacaq (28), adaptasiya (45) .

“**Fikrinizcə, İT sisteminin tətbiqi prosesinin hər hansı bir mənfi nəticəsi və zərərli təsiri ola bilərmi? Əgər olarsa, məhz hansı?**” müəllim sağlamlığı məhdud uşaqlarla çox məşğul olarsa digər uşaqların hüquqları pozular (1), bu uşaqları sağlam uşaqlar incidə bilər (8), psixoloji cəhətdən mənfi təsir edər (12), mənfi nəticəsi olmayacaq (44) (sistemin tətbiqindən əvvəl mexanizmi, lazımi vəsait və şərait yaradılarsa), təlimdə ləngimə ola bilər (31), valideyn narazılığı (31), tipik uşaqların təlim prosesi pozula bilər (10).

“**Fikrinizcə, İT sisteminin tətbiqi prosesində hansı əsas problemlər, çətinliklər və maneələr mövcuddur?**” əsas problem valideynlərin münasibəti (20) (xüsusilə qız uşaqlarının valideynləri), ixtisaslaşmış kadrların olmaması (53), müəllimlərin psixoloji və fiziki cəhətdən yorulması (2), müəllimlərin maddi vəziyyəti (31), müasir modellərin tətbiq olmaması (28), cəmiyyətin bu sistemə hazır olmaması (30), resurslar və texniki vəsaitin olmaması (50), təlimdə vaxt məhdudiyyəti (1), təhsilə cəlb olan uşaqların seçilməsi və seçim meyarları (36).

### İT sahəsində tədris fəaliyyəti

“**İT ilə bağlı fənləri ya da bu sahəyə yaxın fənləri siz tədris edirsiniz?**” tədris edilir (15), tədris etməmişəm (41).

“**Bu fənlərin tədrisi nə dərəcədə keyfiyyətlidir? Tədris prosesində hansı problemlərlə və çətinliklərlə rastlaşırsınız? Bu problemləri və çətinlikləri necə həll edirsiniz/aradan qaldırırsınız?**” dərs vəsaiti və əlavə vasitələrin çatışmazlığı (15), tədrisin

keyfiyyəti qənaətbəxş deyil (21), yerli ədəbiyyat yox səviyyəsindədir (47), praktik məsələlərə daqqət azdır (11), heç bir problem yoxdur (1), bəzi problemlərin həlli üçün kompüter və internetdən istifadə edirik (2).

"**Sizin tələbələr mühazirə və məşğələlərdə İT-ə maraq göstərirlər yaxud laqeyd yanaşırlar?**" çox maraq göstərirlər (48), o uşaqların görüşünə gedib maraqlanırlar (12).

"**Tədris prosesində beynəlxalq təcrübələrdən istifadə edirsiniz, faydalanırsınız?**" Bəli, istifadə edib faydalanırıq (4), beynəlxalq təcrübə baxımından çox boşluğumuz var, xüsusilə regionlarda (40), beynəlxalq təcrübə ilə bağlı dilimizdə heç bir material yoxdu (43), xarici dilli ədəbiyyat və internet materiallarından istifadə edirik (15).

"**Sizin tələbələr gələcəkdə bu sahədə işləmək istəyirlər, maraq göstərirlər?**" Bəli, maraq göstərirlər (48) (əlaqədar fənlərin tədrisi zamanı müşahidə edirik, lakin bu sahə üçün hazırlaşdırılmalıdırlar), tələbələrdən soruşmamışıq (9).

"Tələbələr **öz nəzəri bilik və bacarıqlarını praktiki işdə ortaya qoya biləcəklər?**" yüksək səviyyədə ortaya qoya biləcəklər (16), tətbiq edə biləcəklər (17), tələbələr çox maraq göstərirlər (2), bu sahədə praktik iş nəzəriyyədən çox dözüm və səbr tələb edir (20).

"**Siz tələbələr üçün İT sahəsində peşə/karyera məsləhətləşmələri aparırsınız?**" bəli, məsləhətləşirik (15) (fundamental olaraq yox ancaq bu sahəyə maraq göstərən tələbələrə tədris zamanı məsləhətlər veririk, kurslara yönəldiririk), **yox,** məsləhətləşmirik (38) .

"**İT sahəsində hansı ixtisaslar üzrə pedaqoji kadrlar hazırlamaq lazımdır?**" ilk növbədə ibtidai təhsil ixtisasında (56), bütün ixtisasların müəllimləri İT üzrə məlumatlı olmalıdır (34) (çünki şagird 4-cü sinifdən sonra başqa müəllimlərlə dərs keçməlidir), pedaqoq (12), loqoped (41), psixoloq (44), defektoloq (44), məktəbəqədər təhsil mütəxəssisləri (23).

"**Xahiş edirik, xatırlayın, bu sahədə həyata keçirilən hansı layihə, tədbir və ya təşəbbüsü qeyd edə bilərsiniz? Siz hansısa belə layihələrdə, tədbirlərdə və ya təşəbbüslərdə şəxsən iştirak etmisinizmi? Əgər hə, hansında iştirak etmisiz və bunlar hansı təşkilatlar tərəfindən keçirilib?**" konfranslarda iştirak etmişəm (10) (Qərbi Kaspi Universitetin, Regioanal İnkişaf İctimai Birliyi, Müəllimlər İnstitutu, Mükəmməl Pedaqoq layihəsi çərçivəsində), konfranslarda **iştirak etməmişəm** (45).

## Professor-müəllim heyətinin İT-in həyata keçirilməsində indiki hazırlıq səviyyəsinin qiymətləndirilməsi

"**Professor-müəllim heyətinin İT sahəsində indiki hazırlıq səviyyəsini necə qiymətləndirərdiniz? Niyə belə düşünürsünüz? Onların İT sahəsində peşəkarlığı, bilik və bacarıqlarının ümumi səviyyəsi barədə nə düşünürsünüz?**" **orta** (14), **zəif** (40) (hal hazırda heç bir hazırlıqdan danışa bilmərik, jurnallardan adi məlumatlar toplayırıq ancaq peşəkarlıq cəhətdən heç bir məlumat yoxdur, ancaq sahəmiz olduğu üçün bu barədə araşdırmalar və ödənişli seminarlarda iştirak edirik), müəllimlər tam şəkildə maariflənməlidirlər (50).

“**Professor-müəllim heyətinin İT sahəsində ümumi məlumatlılıq və hazırlıq səviyyəsini necə qiymətləndirərdiniz? Niyə belə düşünürsünüz?**” qənaətbəxş deyil (38) (yerli ədəbiyyat yoxdur), orta (15), nəzəriyyə var amma hələ çox işlər görülməlisir (9).

“**Professor-müəllim heyətinin İT sahəsində xüsusi professional hazırlığını necə qiymətləndirərdiniz? Niyə belə düşünürsünüz?**” orta (12), zəif (39), didaktik bilik var, amma praktik hazırlıq aşağı səviyyədədir (14).

“**Professor-müəllim heyətinin İT sahəsində psixoloji hazırlığını necə qiymətləndirərdiniz? Niyə belə düşünürsünüz?**” yaxşıdır (31), yüksəkdir (9), zəifdir (16) (bütün müəllimlərimizdə bu keyfiyyətlər yoxdu və bu sahəyə nikbin yanaşmırlar), müəllimlər də valideyndirlər, yəqin humanist yanaşacaqlar və tolerant olacaqlar (2), müəllimin öz şəxsi problemləri o qədər çoxdur ki, hal-hazırda necə yardım edəcəyi bir az sual doğurur (1), müəllimdə nəzəri biliklərlə yanaşı şəxsi keyfiyyət və psixoloji hazırlıq da olmalıdır (36), məncə xüsusi qayğıya ehtiyacı olan uşaqları birdəfəlik məktəblərdən təcrid etmək lazımdır çünki psixoloji hazırlıq və maddi çətinlik təsir göstərir, əlilliyi olan uşaq üçün gərək valideyn işdən çıxsın, uşağı məktəbə aparıb gətirsin (1).

**İT sahəsində resursların mövcudluğu və əlçatanlığının qiymətləndirilməsi**

“**İT sahəsində müasir dərsliklərin və tədris/didaktik materiallarının (metodiki vəsaitlər, dərsliklər) mövcudluğu və əlçatanlığı haqqında fikriniz nədir?**” yoxdur (41) (çox çətinlik çəkirik, xarici ədəbiyyata müraciət etməli oluruq), əlçatmazdır (32), çatışmazlıqlar var (11), əvvəlki illərlə müqayisədə yaxşıdır (8), internetdən mühazirələr tapmaq olar (6).

“**İT sahəsində xüsusi təlim proqramlarının və fənn kurikulumunun mövcudluğu və əlçatanlığı, eləcə də inklüziv təhsil üzrə yeni modulların daxil edilməsi haqqında fikriniz nədir? Daha keyfiyyətli nəticə üçün fənn kurikulumuna əlavə və dəyişikliklərə ehtiyac varmı?**” Bəli çox vacibdir (49) (çünki yox dərəcəsindədir, bütün ixtisaslar üçün vacibdir, yeni modul və təlim materiallarına və kurikuluma çox ehtiyac var, resurslara ehtiyac var, çünki patalogiya fiziologiyadan ayrıdır), mövcuddur amma sağlamlıq imkanları məhdud uşaqlar üçün deyil (16).

“**İT sahəsində müasir tədris üsullarının və innovativ texnologiyaların yaradılması və tətbiqi haqqında fikriniz nədir? Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün xüsusi qiymətləndirmə metodlarının mövcudluğu və əlçatanlığı haqqında fikriniz nədir?**” tədris üsulları və innovativ texnologiyalar yaradılmalıdı, belə uşaqlar üçün ayrıca qiymətləndirmə metodlarının **yaradılması vacibdir** (56) (uyğun qiymətləndirmə metodları xüsusilə olmalıdır, uşaqları təhsilə cəlb etməyə müsbət təsir edər, innovativ texnologiyalara ehtiyac çoxdur).

“**Bu mövzuda elmi kitablar və maarifləndirici broşurların keyfiyyətini necə qiymətləndirirsiniz**?” zəif (43) (heç yerdə bu barədə maarifləndirici broşurlar demək olar ki yoxdur, maarifləndirilmə aparılmır, Azərbaycan dilində çox azdır), çox zəif 2, bizim məlumatımız yoxdur (12).

“**İT-in təşkili üçün təhsil müəssisələrində (siniflərdə və auditoriyalarda) müvafiq şəraitin (xüsusi avadanlıq, texniki vasitələr, müasir tələblərə cavab verən inventar) təmin**

**olunması haqqında fikriniz nədir?**" muvafiq şərait-avadanlıq olmalıdır/buna ehtiyac çoxdur (56) (bu uşaqlar üçün xüsusi giriş-çıxış, əlil arabaları, liftlər olmalıdır, sanitar qovşaqlar standartlara cavab verməlidir, heç bir vəsait yoxdur, əyani vəsaitlər yox səviyyəsindədir, Bakıda şərait olsa da rayonlarda yoxdur, elektron avadanlıq və oturacaqlar lazımdır), yeni-yeni formalaşmaqdadır (7).

"**Bunları vacib hesab edirsinizmi: Regional Resurs Mərkəzlərinin yaradılması? Bu sahədə çalışan pedaqoji kadrlar və mütəxəssislərin peşəkar assosiasiyasının və şəbəkələrinin yaradılması? Pedaqoji kadrlar və mütəxəssislər üçün hazırlıq, ixtisaslaşdırma və təkmilləşdirmə kursları və təlim keçirilməsi?**" çox vacibdir/çox yaxşı olar (56) (regionlarda İT-in inkişafı üçün bunlar vacibdir, müəllimlərin hazırlığı resurs mərkəzlərində olmalıdır, hər üçü vacibdir, bunlar qırılmaz zəncirdi, biri tətbiq olunmazsa digər ikisi də alınmaz, müəllimlər arasında təcrübə mübadiləsi də olmalıdır, təlimlər vacibdir, resurs mərkəzi, assosiasiyaların yaradılması, kursların təşkili əsasdır).

## İT sahəsinə dair təklif və tövsiyələr

"**İT sahəsində vəziyyəti yaxşılaşdırmaq üçün, sizcə, hansı tədbirlər (layihələr, proqramlar, təşəbbüslər) görülməlidir?**" ixtisaslı kadrlar (43), görüşlər/maarifləndirmə (56) (xüsusilə regionlarda), proqramların hazırlanması (21), İT ilə bağlı fənnin universitet kurikulumuna salınması (41), nəzəri biliklərin artırılması (25), xüsusi tədris planı (11), velideynlər uşaqları hazırlamalıdır (18), dövlət əlil uşaqlara daha çox şərait yaratmalı (32), dövlər bu uşaqları işlə təmin etməli (37), təlim-tədris (52), geniş təbliğat işləri (51), beynəlxalq təcrübələrin tətbiqi (43), baza məktəblərin olması (21), metodik vəsait (48).

"**Sizin konkret təklif və tövsiyələriniz nədən ibarətdir?**" cəmiyyəti maarifləndirmək (54), valideynlə iş üçün yeni qurumlar yaratmaq (5), qanunvericilikdə uyğun dəyişikliklər (18) (uşaqların təhsildən yayınmasına qarşı qanun və onun dəqiq icra edilsməsi), media və sosial şəbəkələrdən təbliğat və maarifləndirmə üçün istifadə (34), beynəlxalq təcrübələrdən istifadə (38), məktəblərə ixtisaslı kadrlar göndərilsin (15), tədbirlərdə valideynin iştirakı və onlarla söhbət (22), təhsil nazirliyi elmi-metodik tövsiyələr və uyğun mexanizm yaratmalı (21), bu uşaqların işlə təmin edilməsi və peşə yönümlü ixtisaslaşdırılması (18), vəsaitin təmin edilməsi (41).

"**Siz İT modelinin/sisteminin səmərəli tətbiqi üçün hansı tədbirləri və fəaliyyətləri zəruri hesab edirsiniz?**" universitetdə fənn kurikulumuna İT ilə bağlı fənnin daxil edilməsi (42), maarifləndirmə (56), dərs vəsaitinin və texniki bazanın yaradılması (42), maddi dəstək (47), müəllimlər üçün seminar/təlim və kadr hazırlığı (52), dərsliklərin hazırlanmasında psixoloqların iştirakı (11), KİV-lərin imkanlarından istifadə (32), uşaqların bacarıq və qabiliyyətlərinin üzə çıxarılması (34).

"**İT məsələlərinə dair müsbət ictimai rəyin formalaşması və yerli əhalinin diqqətinin və marağının bu məsələlərə cəlb edilməsi üçün nə etmək lazımdır?**" maarifləndirmə aparılmalı (46), ictimaiyyətə humanizm aşılanmalıdır (10), yerli kadrlar hazırlanmalı (33), TV-də bayağı deyil, ciddi verilişlər olmalı (12), təlimlər çox olmalıdır (51).

## Yekun hissə

“**Müzakirələrimizdən götürülən əsas ümumi nəticələr hansılardır/nədən ibarətdir?**” İT-in əhəmiyyəti və bu sistemə keçirməyin vacibliyi (41), belə tədbirlər çox olmalı (52), bu müzakirə motivasiya və maraq yaratdı (31), müzakirədən aydın oldu ki müəllimlərimiz hazırlılqlıdır (11), kadr hazırlığı (32), assosasiya yaradılması (1), resurs bazasının yaradılması (2), maarifləndirmə, dövlət qayğısının vacibliyi (42), maddi baza yaradılmalı (2), texniki baza yaradılmalı (21), praktik təcrübələr öyrənilməli (41).

“**Xahiş edirəm, şəxsi nəticələrinizi qısaca bizimlə bölüşün.**” hər bir işdə ilk əvvəl çətinliklər olduğu kimi bu işdə də olacaq, amma sonda cəmiyyət bu uşaqları qəbul edəcək, bu fənnin bizim kafedramızda tədris olunması çox yaxşı nəticələnə bilər, belə şəxslərə həmişə hər yerdə diqqət göstərməliyik, insanlara xeyirxahlıq hissi aşılanmalıdır, bu işə həssas yanaşmaq lazımdır, İT hal-hazırki dövr üçün ən aktual məsələdir və onun tətbiqi zəruridir.

“**Müzakirə zamanı öz mövqeyinizi və fikirlərinizi dəyişmisinizmi? Əgər belədirsə, necə?**” xeyr (3), bəli (3) (bundan sonra bu haqda daha dolğun məlumatlar əldə edəcəyik və tələbələrlə peşə məsləhətləşmələri aparacağıq, İT vacibdir, bu uşaqlara yanaşma və müraciət düzgün olmalıdır).

“**Ümumiyyətlə, aparılan müzakirə sizin xoşunuza gəldimi? Sizin üçün faydalı oldu?**” Bəli (56) (fikir və məlumatlarımızı paylaşdıq, yeni məlumatlar əldə etmiş olduq, bu sahədə olan yeniliklər haqda məlumat əldə etdik).

“**Xüsusən, sizin üçün ən maraqlısı nə idi?**” statistikani bilmək (32), ümumilikdə müzakirənin özü (52), ölkədə İT sahəsində həyata keçirilən layihədən xəbər tutduq (1), qrupda aktivliyin yaranması (1), müəllimlərin fikirləri 1, bu sahədə uğur qazanmış şəxsləri eşitmək (1).

## Ümumtəhsil məktəblərinin müəllimləri, psixoloqları və rəhbərliyi (direktor, direktor müavini)

### Əlilliyi olan uşaqların bəzi statistik göstəriciləri haqqında məlumatlılıq

“**Necə düşünürsünüz, ölkəmizdə hazırda təxminən neçə əlilliyi olan uşaq var?**” sualına iştirakçıların cavabı aşağıdakı kimi olmuşdur: bilmirəm (42), sayı çoxdur (2), bir milyona yaxın, yüzlərlə, 400-500 min, 10000-ə yaxın, Azərbaycan əhalisinin 5%-i, 15000, 2000-3000, Azərbaycandakı uşaqların 30-40%-i, 6000-ə yaxın.

Tələbələrdə olduğu kimi müəllimlərin də sağlamlıq imkanları məhdud uşaqların ümumi sayı, təhsilə cəlb olma səviyyəsi və s. ilə əlaqədar statistika haqda dəqiq məlumatları yoxdur. Bu suala verilən cavablar əlilliyi olan uşaqlarla bağlı statistik məlumatların zəif olduğunu göstərir.

“**Bu səslənən rəqəmlərlə kim razıdır? Kim razı deyil? Niyə razı deyilsiniz?**” səslənmiş dəqiq statistik məlumatla bağlı respondentlər münasibət bildirməmişdir.

“**Sizin fikrinizcə, bu uşaqların neçə faizi məktəbə heç getmirlər?**” sualına cavab olaraq respondentlər müxtəlif rəqəmlər söyləmişdilər, lakin həmin rəqəmlər dəqiq satatistik məlumatlara uyğun deyil (50%, 20%, 30%, 70%, 80%, 20-30%, 50%, 70-80%) və bilmirik (40) .

“**Bu səsləndirilən faizlərlə kim razıdır? Kim razı deyil? Niyə razı deyilsiz?**” sualına cavab olaraq respondentlər bildirmişdilər ki; bəzən valideyn öz uşağını məktəbə getməyə qoymur, onlar uşağın digərlərinin yanında psixoloji sarsıntı keçirməsindən ehtiyat edirlər. Digər respondent valideynlərin qeydlərinə istinadən bildirib ki, onların övladları məktəbə getmək istəyir, amma buna şərait yoxdur və maddi vəziyyət imkan vermir.

“**Necə düşünürsünüz, sizin rayonunuzda, şəhərinizdə/kəndinizdə hazırda təxminən neçə sağlamlıq imkanları məhdud uşaq var?**” sualına münasibətdə respondentlər dəqiq məlumata malik olmadıqlarını bildiriblər (37), onların bəzisi dəqiq statistik rəqəmlərə uyğun gəlməyən ümumi rəqəmlər səsləndirmişdilər (100, 1000, 2000, 3000, 60, 48, 500, 200,150, 300 və s.), çox olar (2), bir çoxu gizlədilir (1).

**İnklüziv təhsilə ümumi münasibət və bu sahədə vəziyyətin qiymətləndirilməsi**

“**Sağlamlıq imkanları məhdud uşaqların təhsil sahəsində mövcud vəziyyətini siz necə qiymətləndirirsiniz?**” yaxşı (3), qənaətbəxş (8), pis (34), çox işlər görmək lazımdır (5).

Vəziyyəti qeyri-kafi qiymətləndirən respondentlər nümunə olaraq bəzi problemləri də qısaca izah ediblər (məsələn: vaxt azdır, müəllim bilmir sağlam uşaqla işləsin yoxsa əlilliyi olan uşaqla; Burada xaos əmələ gəlib. Biz bilmirik necə hərəkət edək. Uşaqları ya sinifdən uzaqlaşdırırıq, ya pərt edirik. Məktəbdən uzaqlaşanda da valideyn digər məktəblərə üz tutur. İl ərzində məktəbləri gəzir. Mən korreksion pedaqoqam, mənə 6 sinif təhkim olunub, hərəsi bir mərtəbədədir. İnklüziv təhsildə olan uşaqlar iki-üç dərsdən artıq otura bilmirlər. Çatdırmaq olmur, hər birinə nəzarət etmək olmur, sonda da sənədləri yoxlayanda nə qədər çatışmazlıqlar ortaya çıxır. Amma bu bizim nöqsanımız deyil).

“**Sağlamlıq imkanları məhdud uşaqların öz həmyaşıdları ilə məktəbdə eyni sinifdə oxumağını vacib və məqsədəuyğun hesab edirsinizmi? Siz bunun lehinə yoxsa əleyhinəsiz? Niyə məhz belə düşünürsünüz?**” məqsədəuyğun hesab etmirəm (15) (onlar üçün xüsusi məktəblər olmalıdır, sağlam uşaqlar onları lağa qoyur, dərsin gedişinə mane olurlar, bütün diqqət bunlara sərf olunacaq vaxt çatmayacaq digər şagirdlərə, sağlam uşaqların valideyni narazılıq edir, digər uşaqların fikrini yayındırır). Fiziki məhdudiyyətli uşaqlarla olar, amma əqli geriliyi olan uşaqlarla məqsədəuyğun deyil (40), bəli, məqsədəuyğundur (20) (valideyn əvvəlcə narazı olur, amma sonra razılaşır, sinifdə ab-hava fərqli olur və uşaqlarda mərhəmət hissi oyanır), məqsədəuyğundur, amma baxır uşağın probleminə, əlilliyi olan uşaqların bəzisi ilə xüsusi işləmək lazımdır (41).

“**Fikrinizcə, İT sisteminin tətbiqi hansı müsbət dəyişikliklərə və nəticələrə gətirib çıxarar/gətirə bilər?**” uşaqların məktəbə cəlb edilməsi ilə qabiliyyəti üzə çıxır (əqli deyil fiziki məhdudiyyətli uşaqlar) (36**)**, məhəbbət-mərhəmət hissi artır (22), özünəinam artır (43), adaptasiya-sosiallaşma (47), tipik uşaqlarla rəqabətə həvəs artır (22), şəxsiyyət formalaşır

(36), təcrid olma ehtimalı azalır (42), şagirdlər arasında ünsiyyət və tolerantlıq artır, hüquqları qorunur (31), valideyn arzuolunmaz hislərdən azad olur (28).

### Orta ümumtəhsil məktəblərinin müəllimləri, psixoloqları və rəhbərliyinin İT tətbiqində indiki hazırlıq səviyyəsinin qiymətləndirilməsi

"**Siz müəllimlərin İT sahəsində indiki hazırlıq səviyyəsini necə qiymətləndirərdiniz? Niyə belə düşünürsünüz? Müəllimlərin İT sahəsində peşəkarlığı, bilik və bacarıqlarının ümumi səviyyəsi barədə nə düşünürsünüz? Bunlar tədrisin təşkilinə və keyfiyyətinə necə təsir edir?**" hazırlıq səviyyəsi yuxarı (2), orta (15) və aşağıdır (33). Elə peşəkarlıq görmürəm, amma peşəkarların olması vacibdir (21), hazırlıq səviyyəmizin artması üçün təlim və kurslar olmalıdır (48), kənd yerlərində müəllimlərin hazırlıq səviyyəsi daha aşağıdır (1), ibtidai sinif müəllimləri ilə müqayisədə yuxarı sinif müəllimlərinin hazırlığı daha aşağı səviyyədədir (36), həm təcrübəli, həm də təcrübəsiz müəllimlər var (25).

"**Müəllimlərin İT sahəsində ümumi məlumatlılığı (müvafiq nəzəriyyələr, prinsiplər və təlim yanaşmaları sahəsində məlumatlılıq) indiki hazırlıq səviyyəsini necə qiymətləndirərdiniz? Niyə belə düşünürsünüz?**" hazırlıq səviyyəsi zəifdir (37) çünki məlumtlandırma yoxdu, əyani vəsait yoxdur, əziyyətli işdir, vaxt azdır, kifayət qədər məşğul olmaq olmur, bu sahəyə aid ressurslar zəif olduğundan praktik iş və təcrübə azdır, kurslar, tədbirlər və təkmilləşdirmə vacibdir, müəllimlər əvvəlki biliklərə malikdirlər müasir biliklərə yox, ibtidai sinif müəllimləri həvəslə işləyir, amma yuxarı siniflərdə müəllim və şagird arasında problem yaşanır, yeniliklərdən xəbərimiz yoxdur, təlimlər keçirilmir və yeni metodlar öyrədilmir, yuxarı sinifdə bu uşalar 14 fənn keçir və hər fənnin müəllimi bunlarla iş qaydaları ilə tanışdımı? Yox, ona görə də problem yaranır, orta (10), yaxşı (3) qiymətləndirirəm.

"**Müəllimlərin İT sahəsində psixoloji hazırlığı (motivasiya, maraq, tolerantlıq, nikbinlik, şəxsi dəyərlər, pozitiv münasibət, səbr, məsuliyyət hissi, səriştə, yeniliklərə meyl) indiki hazırlıq səviyyəsini necə qiymətləndirərdiniz? Niyə belə düşünürsünüz?**" zəif (36), müəllimlər bu uşaqlarla işləmək istəmirlər, hesab edirlər ki, bu çox çətin işdir, müəllimlərə xüsusi təlimlərin keçirilməməsi və vəsait azlığı, bəzi müəllimlərin səbirsizliyi və təlim yanaşmalarını bilməmələri, orta (8), yaxşı (6) müəllimin özünün valideyn olması və universitetdə psixologiya fənnini keçməsi, müəllimlərin məsuliyyətlə yanaşaraq yorulmadan cəhd göstərməsi.

### İT sahəsində resursların mövcudluğu və əlçatanlığının qiymətləndirilməsi

"**Müasir dərsliklərin və tədris/didaktik materiallarının (metodiki vəsaitlər, dərsliklər) mövcudluğu və əlçatanlığı haqqında fikriniz nədir?**" dərslikləri **mənfi** qiymətləndirirəm (36) çünki: dərsliklərdə çox səhvlər var, didaktik dərsliklər çox çətindir. Onlar elə olmalıdır ki, sağlam uşaqlarla əlilliyi olan uşaqlar təlim materialını eyni səviyyədə mənimsəsin, elə lazımsız mətnlər, şeirlər salınır ki, sağlam uşaq da onu mənimsəyə bilmir, çox çətindi və savadsızlığa aparır indiki dərsliklər, əlilliyi olan uşaqlar üçün xüsusi dərslik

olmadığı üçün mövcud dərsliklərdən istifadə edirik və bu da əlilliyi olan uşaqların qavramasında çətinlik yaradır, əlilliyi olan uşaqlar və tipik uşaqlara eyni zamanda bu dərslikləri keçməyə zaman çatmır və buna görə də orta səviyyəli sadələşdirilmiş dərsliklər lazımdır.

Dərslikləri **müsbət** qiymətləndirirəm (2), amma dərsliklər bir az da təkmilləşdirilsə daha yaxşı olar.

Xüsusi dərsliklər yoxdur (15), əlçatmazdır (35), çox baha olduğu üçün valideyn dərsliyi ala bilmir (28), özümüz material hazırlayırıq (8).

"**Xüsusi təlim proqramlarının və kurikulumun mövcudluğu və əlçatanlığı, eləcə də inklüziv təhsil üzrə yeni modulların daxil edilməsi haqqında fikriniz nədir?**" müasir modeller və proqramlar yoxdur (40): köhnə üsul və metodlardan istifadə edirik, yeni modelləri əks etdirən dərslik və vasitələr yoxdur, bu şaqlara uyğun proqram və dərsliklər hazırlanmalıdır, xüsusi təlim proqramları və kurikulum mövcud deyil, mövcud kurrikulum onlar üçün çətindir, xüsusi təlim proqramı olmalıdır, kurrikulum onlara uyğunlaşdırılmalıdır, hər patologiyanın öz dərəcələri var hər biri üçün ayrıca proqram hazırlamaq absurddur, mövcud kurikulumdakı standartlar sağlam uşaqlar üçündür.

"**İT sahəsində müasir tədris üsullarının və innovativ texnologiyaların yaradılması və tətbiqi haqqında fikriniz nədir? Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün xüsusi qiymətləndirmə metodlarının mövcudluğu və əlçatanlığı haqqında fikriniz nədir?**" Müasir tədris üsullari və İKT-nin tətbiqi lazımdır (47) çünki: onlarda maraq oyadır, verbal və vizual imkanlar birləşib qavrama imkanını yüksəldir, uşaq gördükdə daha yaxşı və dərindən qavrayır, İKT-nin təbiqi ilə dərs yorucu olmur.

İKT-nin tətbiqi lazım deyil (1) çünki: uşaqlar avadanlıqlarla oynayır və onlar danışmırlar, beləliklə söz ehtiyatları məhdud olur.

Xüsusi qiymətləndirmə metodları və üsullarının işlənilməsi vacibdir (35).

"**İT-in təşkili üçün təhsil müəssisələrində (siniflərdə və auditoriyalarda) müvafiq şəraitin (xüsusi avadanlıq, texniki vasitələr, müasir tələblərə cavab verən inventar) təmin olunması haqqında fikriniz nədir?**" lazımı şərait yaradılmalıdır: uşaqlar üçün panduslar (45), elektron lövhələr (17), kompüterlər (43), rahat giriş-çıxış üçün yol-şərait, müasir tələbata cavab verən texniki və pedaqoji vəsait (12), divarlarda maraqlı şəkillər (11), əyləncəli filmlər (23), maraqlı kitablar (31), rayonlarda peşə reabilitasiya mərkəzləri (33), məktəbdə güclü valideyn assosiasiyası (29), geniş maddi imkanlar olmalı (27), valideyn məktəb problemlərinin həllində iştirak etməlidir (16), pilləkən, səki və ayaqyolu fiziki məhdudiyyətli uşaqlar üçün uyğun olmalıdır (43).

### İT sahəsində şəxsi təcrübə, təklif və tövsiyələr

"**Siz fəaliyyətiniz zamanı İT məsələləri ilə şəxsən məşğul olmusunuzmu, rastlaşmısınız? Bəli, hansı formada?**" Bəli (42), rastlaşmışam və olsa işləyə bilərəm (6), evdə təhsil həyata keçiririk, İT yox (17), bəli, adı İT olmasa da əlilliyi olan uşaqlar həmişə olub (1).

“**Sizin məktəbdə, sinifdə şagirdlər arasında əlilliyi olan uşaqlar var?**” Bəli (26), məktəbdə yox, evdə təhsil alan var (17).

“**Bu cür uşaqlarla işləməkdə hansı problemlər və çətinliklərlə qarşılaşırsınız? Uşaqların və onların valideynlərinin buna reaksiyası necədir?**” əqli geriliyi olan uşaqlarda daha çox problem olur (bu uşaqlarda normal münasibət olmur (1), sinif yoldaşlarını incidir (33), dalaşır (28), dərs prosesini pozurlar (15), onları öyrətmək çətindir və çox vaxt aparır (37), digər uşaqların diqqətini yayındırır (36), digər fənlərdən dərs deyən müəllimlər onlara dərs keçmək istəmir və şikayətlənir (38), uşağı ayaq yoluna aparmaq (23), bəzi digər ehtiyaclarını qarşılamaqda kömək edən adamın olmaması (42), müəllimin sərf etdiyi enerjiyə uyğun maaş almaması (**bütün FQ iştirakçıları)**, valideynlər öz uşaqlarının təhlükəsizliyi baxımından narahat olurlar (32), əqli geriliyi olan uşaqlardan birinin diqqətsiz davranışı digər uşağa zərər yetirər (2), valideynlərin reaksiyası yaxşı deyil (39), hərəkət, anlamaq və yazmaqda çətinlik çəkirlər (1), özündən asılı olmayaraq bəzi fiziki ehtiyaclarını sinifdə ödəyirlər (18), direktor və ya digər şəxs tərəfindən harasa çağırıldıqda onları sinifdə tək qoya bilmirik (1), uşağın qidalanması (19), sağlam uşaqların valideynlərinin etirazı və narazılığı (1), bu cür uşaqlarla iş tamamilə problemli və çətindir (1), valideyn müsbət yanaşır və həvəsləndirir (12), uşaqlarla heç bir problem yaşamırıq, əsas valideynləri ilə yaşayırıq ki, uşaqlarının potensialından artıq nəticə tələb edirlər (10).

“**Xahiş edirik, xatırlayın, bu sahədə həyata keçirilən hansı layihə, tədbir və ya təşəbbüsü qeyd edə bilərsiniz? Siz hansısa belə layihələrdə, tədbirlərdə və ya təşəbbüslərdə şəxsən iştirak etmisinizmi? Əgər hə, hansında? Əgər hə, bunlar hansı təşkilatlar tərəfindən keçirilib?**” xeyr iştirak etməmişəm, (Ağcabədi, Cəlilabad, Quba, Şamaxı, Şəki) (5). Sadalanan rayonların orta məktəb müəllimləri heç bir təlimdə, seminarda iştirak etməmişdir. Yalnız universitetdə təşkil edilmiş tədbirdə iştirak etmişəm (2), Bəli UNİCEF, Almaniya, Təhsil Nazirliyinin, 138 saylı məktəbin təşkil etdiyi təlimlərdə iştirak etmişəm (1). İştirak edən müəllimlər Bakı şəhərində yerləşən məktəblərin müəllimləridir. Amma müəllimlər təlimlərin keçirilməsində çox maraqlıdırlar. Onlar İT ilə bağlı biliklər əldə etmək, praktikaya əsaslanan beynəlxalq təcrübəni özündə əks etdirən təlimlərin keçirilməsini istəyirlər.

“**İT sahəsində vəziyyəti yaxşılaşdırmaq üçün, sizcə, hansı tədbirlər (layihələr, proqramlar, təşəbbüslər) görülməlidir? Sizin konkret təklif və tövsiyələriniz nədən ibarətdir? İT modelinin/sisteminin səmərəli tətbiqi üçün hansı tədbirləri və fəaliyyətləri siz zəruri hesab edirsiniz?**” təlimlər və kurslar olmalı (47), beynəlxalq təcrübəyə müraciət olmalı (41), dərsliklər olmalı (39), məktəbdə şərait və xüsusi avadanlıq yaradılmalı (43), bu uşaqlarla işləyənlərin maaşı fərqlənməli və artmalıdır (iştirakçı müəllimlərin hamısı bu fikrə qoşulub), xüsusi nəzarət (22), köməkçi müəllimlər olsun (42), baxıcı-sanitar olsun (iştirakçı müəllimlərin hamısı bu fikrə qoşulub), kadrların seçilməsi prosesi mütləq olmalıdır (39), valideynlərlə tez-tez görüşüb söhbət edib maarifləndirmə aparılmalıdır (47), peşəkar müəllimlər çox olmalı (36), bu uşaqların dərs saatları artmalıdır (16), maddi dəstək olmalıdır, bu uşaqlarla işləyən müəllimlərin maaşı artırılmalıdır (iştirakçı müəllimlərin hamısı bu fikrə qoşulub), resurs mərkəzi olmalı (42). Yuxarıda sadalanan fikirlərlə bütün iştirakçı müəllimlər razıdırlar.

**Yekun hissə**

"**Müzakirələrimizdən götürülən əsas ümumi nəticələr hansılardır/nədən ibarətdir?**" Əlilliy olan uşaqlar üçün təhsil vacibdir (42), yeni yanaşmalar tətbiq olunmalıdır (31), bütün məktəblərdə tətbiq olunmalıdır (21), onlar üçün əlavə resurslar tətbiq olunsun (38), texniki vəsaitə ehtiyacımız var (33), müəllimə və valideynlərə maddi dəstək olmalıdır (iştirakçı müəllimlərin hamısı bu fikrə qoşulub), kursların təşkili (48), evdə təhsildənsə İT tətbiq olsun (1).

"**Xahiş edirəm, şəxsi nəticələrinizi qısaca bizimlə bölüşün**" yatmış fikirlərim oyandı (32), bildiklərimi təkrar etdim (1), İT-nin inkişafına ümid yarandı (41), problemlərimizi bölüşdük ən azından (31), hər bir uşaq bir fərddi (1), uşaqlara dəstək olmaq lazımdır (40), yuxarıda dediklərimiz (1).

"**Müzakirə zamanı öz mövqeyinizi və fikirlərinizi dəyişmisinizmi? Əgər belədirsə, necə?**" Xeyr (42), Bəli (8) .

Mən İT-nin tətbiqinin tərəfdarıyam və bu müzakirə də bu məqsədə xidmət edir, uşaqlar haqqında çox az məlumatlıydıq, indi isə daha çox məlumatlıyıq, fikirlərimiz dəyişdi, İT mütləq lazımdı, biz daha çox evdə təhsilə üstünlük veriridik, amma indi İT-in vacibliyini bir daha anladıq.

## VII. EKSPERT MÜSAHİBƏSİNİN

## NƏTİCƏLƏRİ

1. Müsahibədə iştirak edən müxtəlif peşə kateqoriyaları və təşkilatlar/qurumları təmsil edən **ekspertlərin** böyük əksəriyyəti (təxminən 80 faiz) ölkəmizdə xüsusi qayğıya ehtiyacı olan uşaqların indiki ümumi vəziyyətini "qeyri-qənaətbəxş", "çox çətin", "asan deyil", "kifayət qədər yaxşı, qənaətbəxş deyildir", "çox aşağı səviyyədə" və s. qiymətləndiriblər.

2. Ekspertlər **müvafiq infrastrukturun** (rampalar, panduslar, xüsusi eşitmə aparatları, yeraltı keçidlər, xüsusi işıqlandırma, tualetlər, nəqliyyat problemləri, səsli işıqforlar) Bakıda və xüsusilə ölkənin regionlarında olmamasını əlilliyi olan uşaqların **məktəbdə oxumağa** mane olan əsas amillərdən biri hesab edirlər. Ekspertlərin fikrincə xüsusi infrastrukturun olmaması (məktəblərdə xüsusi panduslar, liftlər, tutacaqlar) bu uşaqların **təhsil müəssisələrinə** çıxış imkanlarını, sosaillaşmalarını dramatik şəkildə azaldır və mənfi təsirini göstərir ("çünki mövcud infrastruktur uşağın evdən çıxmasına və məktəbə getmək tamamilə uyğun deyil"). Sorğu zamanı uşaqların valideynləri eyni fikirləri də ifadə ediblər ("bütün valideynlər uşaqlarını avtomobillə məktəbə aparmaq imkanına malik deyillər"). Cəmiyyətin onlara qarşı qeyri adekvatlığı onların təhsilə bütövlükdə rahat qoşulmasına problemlər yaradır. Təhsil müəssisələrinin binalarının müyəssər olmaması səbəbindən hər il minlərlə xüsusi qayğıya ehtiyacı olan uşaqlar məktəbə gedə bilmirlər. Bu kimi problemlər onları **təhsil hüququndan** ya tamam məhrum edir ya da yaxşı təhsil almalarını xeyli məhdudlaşdırır.

Xüsusilə **regionlarda** əlilliyi olan uşaqlar infrastrukturun uyğun olmaması səbəbindən təhsildən yararlana bilmirlər.

3. Müsahibədə iştirak edən demək olar bütün ekspertlərin vurğuladığı digər bir mühüm məsələ cəmiyyətin/əlilliyi olan uşaqlara mənfi münasibətidir("bəziləri gülür, bəziləri kənarlaşır, bəziləri çəkinir"). Ekspertlər hesab edirlər ki, bu amil nəticəsində bu uşaqlar nəinki mənfi psixoloji təsirlərə məruz qalırlar, eyni zamanda, həmyaşıdlarla birlikdə təhsil almaqdan təcrid olunurlar. Buna görə də əlilliyi olan uşaqların valideynləri öz uşaqlarını evdən çıxarmaq istəmirlər ("onlar mənfi rəftarı və onlar haqqında deyilən bəzi ifadələri- "şikəst", "lal", "çolaq", "lal-kar", "kor" və s. eşitmək istəmirlər", "onlara qarşı ikili və hətta şübhəli, təkəbbürlü münasibət var", "mediada və cəmiyyətdə çoxlu mənfi stereotiplər və damğalama var", "adətən insanlar qeyri-adi uşaqları sevmirlər", "bu uşaqlara digər uşaqlar tərəfindən istehza edilir, buna görə onlar evdən çıxmaq və ictimai yerləri ziyarət etməkdən çəkinirlər", "bu uşaqlar gülünc vəziyyətə düşməmək üçün məktəbə getmək istəmirlər", "mənfi münasibətə görə onlar, demək olar ki, cəmiyyətdən tamamilə təcrid olunublar, bu de-yure deyil, amma de-fakto belədir", "ən yaxşı halda evdə təhsil alırlar").

4. Bir çox ekspertlər bu uşaqlar üçün **psixo-sosial** və **tibbi reabilitasiya** xidmətlərinin kifayət qədər qənaətbəxş səviyyədə olmamasını bildirmişdir. Onlar reabilitasiya mərkəzlərini uşaqların **məktəbə** hazırlığına çox müsbət təsir edə biləcək vacib amil hesab edirlər ("bu sahədə çox ciddi işlər görülmüşdür"). Qeyq olundu ki, hazırda ölkəmizdə bir neçə reabilitasiya mərkəzi fəaliyyət göstərir. 2016-cı ildə Uşaq Reabilitasiya Mərkəzi fəaliyyətə başlamışdır. Mərkəzin məqsədi tibbi, sosial, təhsil və peşə bərpa tədbirlərinin təmin edilməsi yolu ilə əlilliyi olan uşaqların sosial vəziyyətinin yaxşılaşdırılmasıdır. Mərkəzin əsas funksiyalarına kompleks psixoloji və pedaqoji tədbirlər, eləcə də uşaqların tibbi, psixoloji, təhsil və peşə diaqnostikasıdaxil edilmişdir ki, bu da onların reabilitasiya potensialını artırmaq məqsədi daşıyır. Xidmətlərə həmçinin bədən tərbiyəsi, fiziki müalicə, masaj, hovuz terapiyası, psixoterapiya, logopediya, əmək terapiyası, musiqi terapiyası və əl sənətləri daxildir. Mərkəzlər yeni, qabaqcıl və müasir tələblərə cavab verən reabilitasiya metodları hazırlayır və həmin metodları uşaqların reabilitasiyası üçün uğurla tətbiq edir. Eyni zamanda, bir sıra ekspertlər bunu qeyd etdilər ki, müxtəlif regionlarda da bu cürreabilitasiya mərkəzləri qurmaq vacibdir ("Bölgələrdə heç bir reabilitasiya mərkəzi qurulmamışdır. Məsələn, doğuşdan 18 yaşına qədər olan uşaqlar üçün heç bir reabilitasiya mərkəzi yoxdur").

5. Ekspertlərin əksəriyyəti qeyd etdilər ki, **sosial müdafiə və sosial xidmətlər** mövcud yaxud adekvat deyil. ("Baxmayaraq ki, ölkəmizdə bir sıra internat müəssisələri var, bu müəsssilərdə demək olar ki, **sosial xidmətlər** mövcud deyil"). Təqribən dörddə bir ekspert **sosial xidmətlər** sahəsində mövcud vəziyyəti orta səviyyədə qiymətləndirib. Eyni zamanda, ekspertlərin dörddə biri (əsasən dövlət orqanlarını təmsil edən) **əlilliyi olan** uşaqlar üçün **sosial müdafiə** və **sosial xidmətləri** "kifayət qədər yaxşı" qiymətləndirdilər.("Əlilliyi olan uşaqların sosial müdafiəsi dövlətin diqqət və hörmət etdiyi məsələlərdən biridir", "Xüsusi qayğıya ehtiyacı olan uşaqlara respublikada böyük diqqət yetirilir", "2000-ci illərin əvvəli ilə müqayisə etsək, bu sahədə müəyyən irəliləyiş və inkişaf var").6. Demək olar ki, bütün ekspertlər yekdilliklə hesab edir ki, İT sisteminin tətbiqi aşağıda sadalanan **müsbət** dəyişikliklərə və nəticələrə gətirib çıxarar: əlilliyi olan uşaqların tədricən sosaillaşması,

onların hərtərəfli fiziki və intellektual inkişafı, cəmiyyətə adaptasiyası, təhsilin humanistləşdirilməsi, əlilliyi olanuşaqların özünəinam hissinin artması, gələcəkdə onların ali məktəbə qəbul olunması,yarana biləcək problemlərin əhəmiyyətli dərəcədə azalması və nəticədə onların məşğulluq problemlərinin aradan qaldırılması (“Əlilliyi olan uşaqlar təhsil alsa, onlardan çox gözəl mütəxəssislər yetişə bilər”, “Əlilliyi olan uşaqların tam müstəqil yaşaya bilmələri üçün təhsil lazımdır”, “Təhsili olsa, müstəqil həyata addım atdıqdan sonra iş imkanları olacaq, özünü cəmiyyətdə inkişaf etdirə biləcək, dünyagörüşü artacaq”, “İnkuliziv təhsilə cəlb olunmuş uşaqlar nəinki təhsilə yiyələnirlər, eyni zamanda onlar sosial bilik və bacarıqlar da əldə etməklə cəmiyyətdə özlərini reallaşdıra bilirlər”).

7. Müsahibədə iştirak edən bəzi ekspertlərin fikrincə, İT-intətbiqi aşağıdakı **mənfi** dəyişikliklərə və nəticələrə gətirib çıxara bilər: “İlkin mərhələdə ola bilər, tipik uşaqlar məlumatsızlıq səbəbindən psixoloji təsirə məruz qalsın, həmçinin pedaqoji heyətin də bu məslədə hazırlıqlı olmaması buna mənfi təsir göstərə bilər”, “Müəllimlərin kifayət qədər ciddi hazırlıq planının olmaması bəzi neqativ hallara səbəb ola bilər”, “Məktəblərin buraxılış imtahanındakı reytinqi aşağı düşə bilər, amma bu ilk vaxtlar belə olacaq, lakin keçid dövrünü uğurla keçə bilsə vəziyyət yaxşılaşacaq”. Bəzi ekspertlər hesab edirlər ki, İT peşəkarlıqla tətbiq edilməsə, bu, bütövlükdə təhsilin keyfiyyətini azaldacaq və gözlənilən nəticə əldə edilməyəcək. Həmçinin, ekspertlərin əksəriyyəti hesab edirlər ki, inklüziv təhsil hərtərəfli, düzgün, ardıcıl, düşüncəli, normal və elmi cəhətdən əsaslandırılmış şəkildə həyata keçərsə, heç bir mənfi nəticəsi olamayacaq.

8. Ekspertlərin böyük əksəriyyəti orta ümütəhsil məktəblərinin işçilərinin **(rəhbərlik, müəllimlər, psixoloqlar,)** İT üzrə indiki hazırlıq səviyyəsi çox zəif və aşağı qiymətləndirilib. Ekspertlər bu məsələ ilə bağlı aşağıdakı fikirləri bildiriblər: təhsil işçilərinin hazırlıq səviyyəsi çox aşağıdır; təhsil işçilərinin İT haqqında bilgiləri zəifdir; hələ də bəzi məktəb rəhbərləri var ki, “inkluziv” sözünün nə olduğunu bilmirlər və ən piscəhət ondan ibarətdir ki, onlar heç bunu bilmək də istəmirlər; yalnız pilot məktəblərdə pedaqoji kadrlarkifayət qədər məlumatlıdırlar; İT üçün təhsil işçilərinin hazırlıqsəviyyəsi çox aşağıdır, bunun üçün ölkədə heç bir kurslar və təlimlər keçirilmir; müəllimlər İT üçün lazımi səviyyədə hazır deyil çünki psixoloji və pedaqoji kitablar oxumurlar; həm psixoloqlarımız, həm də pedaqoqlarımız İT haqqında bilgiləri azdır; məktəblərdə İT üzrə peşəkarsosial işçilər və psixoloqlar olmalıdır; çoxları özlərinə bunu artıq yük hesab edirlər; “əsas problem regionlarda müvafiq təhsil müəssisələrinin və pedaqoji kadrların olmaması”. Eyni zamanda, bir neçə ekspert qeyd edib ki, “gənc kadrlar bəlkə az da olsa İT haqqında məlumatlıdırlar, çünki universitetlərdə iki ildi bu fənn tədris olunur, onların İT anlayşıları var, lakin yaşlı nəslin ümumiyyətlə bu sahədə anlayışları demək olar yoxdur”. Bundan əlavə, bir çox ekspert diqqətə çatdırdı ki, İT sahəsində yeni, müasir biliklər və bacarıqlar əldə etmək üçün müəllimlərçox böyük maraq göstərir.

9. Expertlərin fikrincə, İT tətbiq etmək üçün təcrübəli **insan resurslarının, mütəxəssislərin və** pedaqoji **kadrların** hazırlığı son dərəcədə əhəmiyyətli və vacibdir: hal-hazırda mütəxəssis çatışmazlığı var, lakin nəzərə almalıyıq ki, mütəxəssislər tədricən inkişaf edirlər;; “biz regionlarda monitorinqlər keçiririk və məlum olur ki, mütəxəssislər başqa sahənin insanlarıdır, bu sahə mütəxəssisləri çox azdır”; ölkədə xüsusi təhsil sahəsində nəzəri biliyi, praktik bacarığı və psixoloji hazırlığı olanaz sayda kadrlar var; uşaq inkişaf

mərhələlərini bilən, İT sahəsində metodika, tədris materialları və dərsliklər hazırlaya bilənmütəxəssislər demək olar yoxdur.

10. Ekspertlərin fikrincə, İT sahəsində mövcud **tədris resursları** (dərsliklər, didaktik materiallar, xüsusi təlim proqramlar, kurikulum, müasir tədris üsullar, innovativ texnologiyalar, xüsusi qiymətləndirmə metodları) "çox aşağı səviyyədədir", "hələki qənaətbəxş deyil", "yox səviyyəsindədir", "nə dərsliklər, nə proqramlar, nə dərs vəsaitləri, nə kurikilum proqramı heç biri xüsusi təhsil üçün yenilənməyib, Sovetlər dövründən qalan köhnə proqram və dərsliklərdən istifadə olunur", "lazımi tədris resursların olmaması". Həmçinin, bəzi mütəxəssislər vurğuladılar ki, "bu resurslar beynəlxalq təcrübəyə əsalansa yaxşı olardı, amma olduğu kimi xarici təcrübəni gətirmək olmaz, çünki bizim öz dövlətimiz, öz qanunlarımız var, hər bir təzə məlumat bizim qanunlarımıza, mühitimizə uyğunlaşdırılmalıdır".

11. Ekspertlərin rəyinə görə, "İT sahəsində mövcud **maarifləndirmə çap materiallarının** vəziyyəti (broşurlər, bukletlər, plakatlar) hələ qənaətbəxş deyil.", "Yox dərəcəsində deyil, müəyyən broşürlər, bukletlər, plakatlar var ki, baxanda deyə bilərik ki, iş gedir, məlumatlandırıcıdır, amma bəzilərinə istinadən demək olur ki, bunu hazırlayanların inklüziyadan anlayışı yoxdur, ən azından inklüziya ilə interqasiyanı ayırmalıdır."; "Bir neçə sosial yönümlü plakatlar görmək olar şəhərin müxtəlif yerlərində, onlar kifayət qədər adekvat plakatlardır, insanı düşündürür, öz yanaşmasını dəyişməyə sövq edir, amma onlar çox cüzi saydadılar."; "Bəzi QHlər tərəfindən layihə çərçivəsində müəyən maarifləndirmə bukletləri olsa da, bunlar çox azdır"; "Əsasən bu işlərlərlə QHT-lər məşğul olur, bir çox hallarda isə qeyri-mütəxəssis təşkilatlar hansısa layihənin alınması üçün məlumatsız, uyğunsuz çaplar çıxarırlar, ən yaxşısı bu sahənin mütəxəssisləri bura cəlb olunsun çünki indi atılan hər hansı səhv addımı sonra düzəltmək çox çətin olacaq."

12. Bir çox ekspertlər bu prosesdə **valideynlərin** mühüm rolu qeyd etdilər. Ekspertlər valideynlərlə əlaqəli bir sıra problemləri qeyd etdilər: "Valideynlər daha çox övladlarının gələcəyi ilə bağlı psixoloji gərginlik keçirirlər.", "Valideynlər məlumatsızdır, hələ də çox valideyn əlilliyi olan uşaqlarını evdən çıxarmağa çəkinirvə uşaqların potensialına inanmır"; "Valideynlər əlilliyi olan uşaqlarla məşğul ola bilmək üçün lazımı bilik və bacarıqlara sahib olmalıdırlar."; "Bəzi valideynlər hesab edir ki, əgər onların əlliliyi olan uşağı varsa, o heç vaxt bayıraçıxmamalıdır, çünki bu onlar üçün bir növ utanc hesab olunur."; "Valideynlərə bu uşaqlarla əlaqəli müəssisələrin demək olar ki, heç birindəmüvafiq səviyyədə məsləhət verilmir.". Belə bir maraqlı fikir səslənilib, "tipik uşaqlar əlilliyi olanuşaqları çox gözəl anlayırlar, onlar bu uşaqlara yardım edirlər, ən böyük problem isə valideynlərdədir, onların düşüncəsini dəyişmək lazımdır, hazırlamaq lazımdır."

**İnklüziv təhsilin mövcud vəziyyətinin SWOT təhlili**

| GÜCLÜ TƏRƏFLƏR | ZƏİF TƏRƏFLƏR |
|---|---|
| Dövlət tərəfindən dəstək və müsbət münasibət | Bakıda və xüsusilə ölkənin regionlarında müvafiq infrastrukturun olmaması |
| İT sahəsində aydın hökumət siyasəti, proqramı və strategiyasının mövcudluğu | Əlilliyi olan uşaqların sosial müdafiəsi və onlar üçün sosial xidmətlərin qeyri-qənaətbəxşliyi |

| | |
|---|---|
| QHT-lər və dövlət qurumları arasında əməkdaşlıq və tərəfdaşlıq | Əlilliyi olan uşaqlar üçün psixo-sosial və tibbi reabilitasiya xidmətlərinin kifayət qədər qənaətbəxş səviyyədə olmaması |
| Bir neçə məktəbdə pilot layihələrin həyata keçirilməsi | Qanunverici və normativ-hüquqi bazanın lazımi səviyyədə olmaması |
| Azərbaycan Dövlət Pedaqoji Universitetində İT sahəsində xüsusi təlim proqramları və kursların tətbiqi | Əlilliyi olan uşaqların düzgün statistikasının aparılmaması |
| Bu sahədə mütəxəssislərin hazırlanması və təhsili üçün sistemin yaradılmasına başlanması | Cəmiyyətdə İT ilə bağlı aşağı məlumatlılıq səviyyəsi |
| Müxtəlif qruplar və kateqoriyalar üçün seminarlar və təlimlər keçirilməyə başlanması | Orta məktəblərin işçilərinin (müəllimlər, psixoloqlar, məktəb administrasiyası) İT sahəsində hazırda ümumi məlumatlılıq, xüsusi professional və psixoloji hazırlıq səviyyəsinin çox aşağı olması |
| | İT sahəsində müəllimlərin hazırlıq səviyyəsinin lazımi səviyyədə olmaması |
| | İT sahəsində təcrübəli, ixtisaslı mütəxəssislərin çatışmazlığı, xüsusən də regionlarda |
| | İT sahəsində mövcud tədris resursları çox aşağı səviyyədədir, Azərbaycan dilində isə yox dərəcəsindədir |
| | İT sahəsində maarifləndirmə çap materiallarının mövcud vəziyyəti qənaətbəxş deyil |
| **İMKANLAR** | **TƏHLÜKƏLƏR** |
| ADPU-nun Bakı və digər filiallarındakı müəllimlər və tələbələr arasında İT böyük maraq və motivasiya yaranması | Cəmiyyətdə əlilliyi olan uşaqlara qarşı mənfi ictimai münasibətin mövcudluğu |
| Orta/ibtidai məktəblərin müəllimləri və potensial müəllim olan tələbələr onlara müvafiq kurs, təlim, treninq keçiriləcəyi halda İT sahəsində işləməyi arzulayırlar | Əlilliyi olan uşaqların valideynləri arasında lazımi məlumat, bilik və bacarıqların olmaması |
| İT sistemi haqqında düzgün ictimai rəy və fikrin formalaşması üçün maarifləndirmə kampaniyalarının keçirilməsinin başlanması | İT sahəsində tədris materialları və dərsliklər hazırlamağa qadir olan mütəxəssislər sıfır dərəcəsindədir |
| Bu məsələyə ictimaiyyətin marağının tədricən artması və KİV tərəfindən diqqət yetirilməsi | İT-ə qarşı çox sayda psixoloji maneələrin, mühakimələrin və stereotiplərin mövcudluğu |
| Xarici mütəxəssislərin cəlb edilməsi imkanlarının artması | Müvafiq peşəkar yanaşma olmaması İT ideyasının gözdən düşmə riskini artırır |
| Sosial reklam və PR kampaniyaları üçün imkanların artırılması | Lazımi investisiya və təşviq siyasətinin olmaması |
| Effektiv koordinasiya və mübadilə mexanizmi yaradılır | Məktəblərin infrastrukturunun əlilliyi olan uşaqlara uyğunlaşdırılmaması |

## VIII. İNKLÜZİV TƏHSİL SİSTEMİNİN FORMALAŞDIRILMASINA DAİR ÜMUMİ TƏKLİFLƏR

Aparılan tədqiqat nəticələrinin təhlili göstərir ki, əlilliyi olan uşaqların təhsili sahəsində kifayət qədər problemlər mövcuddur. Bu problemlər də öz növbəsində inklüziv təhsilin tətbiqinə birbaşa mənfi təsir göstərir.

Aşağıda tövsiyə edilən tədbirlər məqsədə çatmaq, eləcə də hesabatda təsvir edilmiş boşluqların və maneələrin aradan qaldırılması üçün birbaşa yol göstərə bilər.

**1. Qanunvericilik**

• Qanunvericilikdə olan bəzi boşluqların aradan qaldırılması və müvafiq sənədlərə **dəyişikliklərin** edilməsi;

• İT-intətbiqi üzrə müvafiq **qanunvericilik bazası** və **icra mexanizmlərinin** yaradılması;

• Əlilliyi olan uşaqlar haqqında **məlumat bazasının** hazırlanması;

• Hökumət (Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi), təhsil müəssisələri (Pedaqoji Universiteti, Təhsil İnstitutu) və qeyri-hökumət təşkilatları arasında **əməkdaşlığın, koordinasiya işləri** və **təcrübə mübadiləsi mexanizmlərin** yaradılması.

**2. Maliyyə**

• Əlilliyi olan uşaqların təhsil xərclərinin ödənilmməsi üçün onların valideynlərinə müəyyən maliyyə vəsaitlərinin verilməsi;

• İnklüziv təhsilə cəlb olunan müəllimlərin stimullaşdırılması. Onların maaşının və ya dərs saatlarının artırılması.

**3. Təlim-tədris**

• Azərbaycan Dövlət Pedaqoji Universitetinin “İbtidai təhsil”, “Psixologiya”, “Təhsildə Sosial-Psixoloji xidmət” ixtisasının fənn kurikulumuna inklüziv təhsil ilə bağlı fənnin salınması;

• Azərbaycan Dövlət Pedaqoji Universitetinin digər filiallarında **sosial işçi** və **psixoloqların** hazırlanması;

• Ölkənin regionlarında İT **resurs mərkəzlərinin** yaradılması;

• Təlim, ixtisasartırma kursları, seminarlar, mühazirələr vasitəsilə məktəb və universitet **müəllimləri** və **mütəxəssislərinin** İT üzrə peşəkarlıq səviyyəsini, nəzəri bilik, praktiki bacarıqlar və psixoloji hazırlıq səviyyəsinin artırması;

• Məktəblərin və universitetlərin məzunları üçün **peşə yönümünün müəyyənləşdirilməsi üzrə iş**aparmaq;

• Mütəxəssislərin İT ilə bağlı ölkəmizdə **apardığı işləri** və **layihələri**, haqqında məlumatı ictimaiyyətə daimi və düşgün şəkildə çatdırmaq;

• Müvafiq **təlim paketləri, proqramları, dərslikləri, kurikulumları, metodik/didaktik vəsaitlər** hazırlamaq;

• Müasir **pedaqoji** və **psixoloji** ədəbiyyatları, **elmi-populyar kitabları Azərbaycan dilinə** tərcümə etmək;

• Mütəmadi elmi-praktik **konfranslar** və **dəyirmi masa** müzakirələri təşkil etmək;

• İnklüzi təhsilə cəlb edilmiş əlilliyi olan uşaqlar haqqında **məlumat bazası** hazırlamaq;

• Uşaqları inklüziv təhsilə cəlb etmək üçün xüsusi **qiymətləndirmə** sistemi, metodu və **seçimmeyarlarının** yaradılması və inkişaf etdirməsi;

• Bu sahədə xüsusi psixoloji, sosioloji və pedaqoji **tədqiqatlar** aparmaq;

• Regionlarda reabilitasiya mərkəzlərinin açılması.

**4. Maarifləndirmə**

• **Maarifləndirmə-informasiya** kampaniyaları vasitəsilə **əhalinin** müxtəlif sosial qrupları və kateqoriyaları arasında İT haqda **məlumatlılıq** səviyyəsinin artırması;

• TV/radio kanallarında valideynlər, mütəxəssislər, ekspertlər, qərarvericilərin iştirakı ilə İT mövzusunda silsilə **verilişlərin”** hazılanması və yayılması;

• İT haqda **maarifləndirici çap materiallarının** (broşurlar, bukletlər) hazılanması və yayılması. İT haqda **sosial çarxlar** və **plakatların** hazılanması və yayılması;

• İT haqda azərbaycan dilində **onlayn resursların** hazılanması və yayılması; Mərkəzləşdirilmiş **veb-saytın** yaradılması və ən yaxşı təcrübələr haqqında informasiya mübadiləsi aparmaq;

• **Xarici ekspertlərin** təlim və ustad dərsləri aparması üçün ölkəyə dəvət edilməsi;

• **Valideynlərin** İT-in mahiyyəti, əhəmiyyəti, bu sahədə proqram və metodları haqqında maarifləndirilməsi. Valideynlər üçün metodik vəsaitlərin hazırlanması;

• Unuversitetlərdə bu sahədə təcrübəsi olan **QHT və beynəlxalq qurumları** cəlb etməklə maarifləndirmə seminarları və mühazirələri təşkil etmək.

**5. İnfrastrukturun müyəssərliyi**

• Məktəblərin əlilliyi olan uşaqlar üçün müyəssərliyinin təmin edilməsi. Məktəb şəraitinin uşaqlara uyğunlaşdırılması: rampalar, pandusların qoyulması, tualetlərin uşaqlar üçün müyəssər olması, sinif otaqlarında əlil arabasının hərəkət etməsi üçün şəraitin yaradılması, xüsusi eşitmə aparatları və s.;

• Siniflərin müasir avadanlıqlarla, kompüterlərlə, proyektorla, sağlamlıq imkanları məhdud uşaqlar üçün müasir dərs vəsaitləri ilə təmin edilməsi;

• Şəhərlərin infrastrukturunun əlilliyi olan insanlara uyğun qurulması: yeraltı keçidlər; xüsusi işıqlandırma; nəqliyyat probleminin həlli; səsli işıqforlar və s.

"Regional İnkişaf" İctimai Birliyi
Bakı Şəhəri, Mikayıl Müşfiq küçəsi 2H
150
+994 50 500 01 50
+994 12 505 01 50
office@ie-rt.az
www.riib.az